www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-11 noyabr 2018-ci il Cümə № 239 (7128) Qiyməti 60 qəpik

**Xəbər**

**Bu gün Dövlət Bayrağı Günüdür**

yazısı səh.10-da

**Gündəm**

## "Qəzetimizin cəmi bircə gün uğurlu dövrü olub..."




"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu "Yeni Müsavat"ın qurulmasından 29 il sonra nələri dedi...

yazısı səh. 8, 9 və 10-da

# İRƏVAN KREMLİN QƏZƏBİNDƏ - MOSKVADAN DAHA BİR TƏPKİ

Rusiya ombudsmanı Ermənistanı rus dilini və rusdilliləri sıxışdırmaqda ittiham etdi; Kremlin "düyməyə" basacağı gün uzaqda deyil, çünki...



yazısı səh.5-də

## Ukraynadakı səfirlikdən 2,4 milyon dollar mənimsəmədə "ikinci pərdə" - səfirdən ittihamlı təkzib

Azər Xudiyev sabiq səfir Tələt Əliyevdən erməniəsilli nazirə şikayət etmədiyin deyir,amma...

yazısı səh.8-də

## Rusiyaya qarşı da yeni sanksiyalar gəlir - Azərbaycanın atacağı addımlar

yazısı səh.3-də

## DTX dəmiryolunda böyük bir faciənin qarşısını aldı - təfərrüat

yazısı səh.14-də

## Müşfiqlə bərabər Əhməd Cavadın da qalıqları axtarılır

yazısı səh.13-də

## REAL 40 min imza kampaniyasına start verir

yazısı səh.6-da

## Badamdardakı sürüşmədə böyük bir qaya uçmaq üzrədir - təhlükə

yazısı səh.14-də

## Başına 12 milyon dollar qoyulan PKK-çılar kimlərdir?

yazısı səh.3-də

## Kəlbəcərli girovlar azad oluna bilər

yazısı səh.7-də

## Bakıda bu gün leysan gözlənilir

yazısı səh.14-də

## Toy mövsümü başladı: ekoloji normalara əməl etməyənlər hələ də var

yazısı səh.4-də

## Milyardları "xortumlamış" keçmiş məmurlar istintaqa çəkilir

yazısı səh.12-də

## Azərbaycanda ciddi demoqrafik çətinliklər gözlənilir

yazısı səh.4-də



## Zamirə Hacıyeva Londonda ev dustağı edildi

yazısı səh.6-da



## Hacı Qalib 3 dövlət qurumuna qarşı

yazısı səh.12-də



## Xalq artisti Amaliya Pənahova bu gün dəfn olunacaq

yazısı səh.2-də



## Prezident Metropoliten əməkdaşlarını təltif etdi

**Prezident İlham Əliyev Şaiq Eyubova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamla Bakı Metropoliteninin tikintisində xidmətlərinə görə Şaiq Veyis oğlu Eyubova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.

Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Prezidentin digər sərəncamı ilə Bakı Metropoliteninin tikintisində və istismarında səmərəli fəaliyyətinə görə bir neçə şəxsə "Tərəqqi" medalı verilib.

## Ziya Məmmədovun qohumunun marşrut xətti başqa şirkətə verildi -BNA-dan qərar

**Bakının Binə qəsəbəsində ağır qəza ilə yadda qalan 160 nömrəli müntəzəm marşrut xətti üzrə sərnişindaşıma fəaliyyətini həyata keçirən "Ayşən LTD" MMC ilə bağlanan müqaviləyə xitam verilib.**

Strateq.az xəbər verir ki, bu barədə məlumatı Bakı Nəqliyyat Agentliyi yayıb.

Bildirilib ki, BNA İdarə Heyətinin sədrinin müvafiq sərəncamına əsasən, xətt üzrə sərnişindaşıma xidmətinin göstərilməsi "Çinar-Trans" MMC-yə həvalə edilib: "Noyabrın 11-dən bu şirkət sərnişinlərə yeni avtobuslarla xidmət göstərəcək".

Yeri gəlmişkən, onu da qeyd edək ki, "Ayşən LTD"nin sahibinin sabiq nəqliyyat naziri Ziya Məmmədovun qohumu olduğu haqda mətbuatda təkzib olunmayan xəbərlər yayılıb.

## Bakıda 2 yeni metro stansiyası açılacaq

**"Hazırda "Bakı Metropoliteni" QSC-nin III - "Bənövşəyi xətt"inin tikintisi davam etdirilir və gələn ilin sonunda ilk iki stansiyanın istismara verilməsi nəzərdə tutulur". "Report"un məlumatına görə, bunu qurumun istismar üzrə baş mühəndisi Əlixan Osmanov metro işçilərinin peşə bayramı münasibəti ilə keçirilən tədbirdə bildirib.**

"Burada çətinlik ondan ibarətdir ki, metropolitenin baş layihəçisi - Fransanın SYSTRA şirkəti işlədiyi müddət ərzində yalnız konsepsiyanı irəli sürüb və ümumi istiqamətlər verməklə məşğul olub. Qısa müddətdə "Bakımetrolayihə" institutunun işi canlandırılıb və ən zəruri layihələr hazırlanıb. Onun nəticəsidir ki, gələn ilin sonunda iki stansiyanın istismara verilməsi nəzərdə tutulur. "Bənövşəyi xətt"in digər stansiyalarının tikintisində işlər lazımi səviyyədə aparılır", - deyə o qeyd edib.

## BŞİH: Avtobusun vurduğu qadın üç ildir süpürgəçi işləmirdi

**Bakıda faciəli şəkildə ölən qadını yolu süpürərkən deyil, yolu keçərkən avtobus vurub. Bu barədə "Report"a Bakı Şəhər İcra Hakimiyyətindən (BŞİH) bildirilib.**

Qeyd edilib ki, Bəsti Dostəli qızı Eyvazova üç il əvvələ qədər Nizami rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin 34 saylı Mənzil-Kommunal və Texniki Xidmət sahəsində çalışıb: "Bəsti Dostəli qızı Eyvazova 2015-ci ildən orada çalışmırdı".

Qeyd edək ki, qadın hadisə yerində dünyasını dəyişib. Faktla bağlı Nizami rayon Polis İdarəsi tərəfindən cinayət işi başlanıb, istintaq aparılır.

Hadisəni törədən sürücü saxlanılıb.

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi qəzetin əməkdaşı Xalidə Gəraya Atasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Amaliya Pənahova vəfat etdi



**Vida mərasimi bu gün Akademik Milli Dram Teatrının binasında olacaq**

Prezident İlham Əliyev xalq artisti Amalya Pənahovanın vəfatı ilə bağlı nekroloq imzalayıb.

"Report"un xəbərinə görə, nekroloqda deyilir: "Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan teatrı və kino sənətinin tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, sənətşünaslıq üzrə elmlər doktoru, professor Amalya Əliş qızı Pənahova 2018-ci il noyabr ayının 8-də ömrünün 74-cü ilində vəfat etmişdir.

Amalya Pənahova 1945-ci il iyunun 15-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1962-1966-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində ali təhsil almışdır.

1964-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul edilən Amalya Pənahova burada 1992-ci ilədək səhnə fəaliyyətini davam etdirmişdir. O, 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaratmış və ömrünün sonunadək həmin Teatra rəhbərlik etmişdir.

Zəngin yaradıcılıq axtarışları sayəsində milli teatr və kino sənətinə dəyərli töhfələr vermiş Amalya Pənahova müasir Azərbaycan mədəniyyətində özünəməxsus layiqli yer tutur. Azərbaycan teatrının parlaq ənənələri zəminində formalaşan və bu irsə həmişə sadiq qalan sənətkar gözəl ifa tərzi və yüksək səhnə mədəniyyəti ilə qısa müddət ərzində teatr və kino həvəskarlarının rəğbətini qazanmış, sənətsevərlərin qəlbinə yol tapmışdır. İfadəli səs tembrinə malik istedadlı aktrisanın milli və dünya dramaturji irsinə müraciət edərək teatr səhnəsində böyük məharətlə canlandırdığı çox sayda yaddaqalan obrazlar öz təbiiliyi, həyatiliyi və lirik-psixoloji dərinliyi ilə səciyyələnir. Onun sənətkar olaraq müasirlərin daxili aləminə peşəkarlıqla nüfuz etmək bacarığı mütəxəssislər tərəfindən təqdirlə qarşılanmışdır.

Amalya Pənahovanın televiziya tamaşalarında yaratdığı unudulmaz personajlar milli televiziyanın fondunda diqqətəlayiq sənət nümunələri kimi qorunub saxlanmaqdadır. Kinofilmlərdəki müxtəlif səpkili rolları aktrisanın bu sənətin incəliklərinə dərindən bələd olduğunu aydın təcəssüm etdirir. Amalya xanımın ekran həyatı bəxş etdiyi dolğun və bitkin surətlər sırasında tarixi-mədəni keçmişimizlə bağlı qadın obrazları Azərbaycan kinematoqrafiyasının nailiyyətlərindən sayılır.

Teatr sənətini pedaqoji fəaliyyətlə uğurla əlaqələndirən Amalya Pənahova respublikada gənc aktyorların yetişdirilməsi üçün böyük əmək sərf etmişdir. O, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

Amalya Pənahovanın Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər lazımınca qiymətləndirilmişdir. O, bir sıra mükafatlara və fəxri adlara layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından "Şöhrət" və "Şərəf" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Tanınmış sənətkar, teatr təşkilatçısı, pedaqoq və səmimi insan Amalya Pənahovanın xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır".

**Mərhumun cənazəsi vidalaşmaq üçün 2018-ci il noyabrın 9-da saat 11.00-dan 13.00-dək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasında qoyulacaq (Füzuli meydanı, 1).**

## Dövlət Gömrük Komtəsinin əməkdaşları məhkəmədə dindiriliblər



**Bakı Ağır Cinayətlər Məhkəməsində qaçaqmalçılıq yolu ilə gizli şəkildə ölkəyə dərman gətirməkdə təqsirləndirilən Vüsal Həsənovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

"Report"un xəbərinə görə, hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən prosesdə şahid qismində Dövlət Gömrük Komtəsinin Biləsuvar Gömrük İdarəsinin əməkdaşları dindirilib.

İdarənin əməkdaşı Elşən Zeynalov istintaqa verdiyi ifadəsini təsdiqləyib.

***Şahid Sabir Seyfullayev dindirilən zaman təqsirləndirilən V.Həsənovu yaxşı xatırlamadığını bildirib:*** "İstintaqa verdiyim ifadəmi təsdiq edirəm. Bildiyim qədəri ilə Vüsal Həsənov İrandan Azərbaycana qaçaqmalçılıq yolu ilə gizli şəkildə dərman gətirib. Amma həmin vaxt orada olmamışam".

Məhkəmədə S.Seyfullayevin istintaqa verdiyi ifadəsi elan olunub. O, ifadəsində ölkəyə qanunsuz yolla dərman keçirməyin mümkün olmadığını deyib.

Təqsirləndirilən V.Həsənov bildirib ki, İrana gedib-gələn zaman Biləsuvarda gömrük əməkdaşı S.Seyfullayevi çox görüb.

Şahid Taryel Qurbanov da dindirilən zaman istintaqa verdiyi ifadəsini təsdiq etdiyini vurğulayıb. O bildirib ki, İrandan Azərbaycana qanunsuz dərmanın keçirilməsi qeyri-mümkündür: "Biz hər kəsi yoxlayırıq".

Məhkəmənin növbəti iclası noyabrın 22-nə təyin edilib.

**Qeyd edək ki, V.Həsənov İrandan Azərbaycana qaçaqmalçılıq yolu ilə gizli şəkildə dərman gətirməkdə şübhəli bilinərək saxlanılıb. Daha sonra məhkəmə qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib.**

## ABŞ Dövlət katibinin elçisi: «Azərbaycan hibrid müharibə ilə üzləşib»

**Amerikanın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların məqsədi Moskvanı beynəlxalq hüququn normalarına geri dönməyə məcbur etməkdir. "Kommersant" qəzetinin yazdığına görə, bu barədə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent bildirib.**

Bu günlərdə Cənubi Qafqaz regionunda səfərdə olan Corc Kentlə Rusiya, Ukrayna, Macarıstan, Latviya, Polşa, Serbiya və Türkiyədən olan bir qrup jurnalist Kiyevdən "Skype" üzərindən söhbətləşiblər. Jurnalistlərin amerikalı diplomatla bu söhbətini ATƏT "Dezinformasiyaya qarşı mübarizə" proqramı çərçivəsində təşkil edib.

Diplomat dezinformasiya mövzusuna özünün giriş nitqində toxunub. "Mən Ukrayna, Belarus, Gürcüstan, Moldova, Ermənistan və Azərbaycanla işləyirəm. Həmin ölkələrin hamısı bu və ya başqa formada Rusiyanın region ölkələrinə yanaşmasının nəticəsi olaraq meydana çıxan çağırışlarla üzləşiblər"- Corc Kent bildirib.

Dövlət Departamentinin rəsmisi dəqiqləşdirib ki, söhbət o cümlədən beynəlxalq hüququn normalarının pozulmasından, dezinformasiyadan istifadə edilməsindən və "bəzilərinin hibrid müharibə adlandırdığı metodların" işə salınmasından gedir. "Hər ölkədə situasiya fərqlidir və onların hər biri bu çağırışlara fərqli reaksiya verir"- diplomat əlavə edib.

Corc Kent qeyd edib ki, ona və bir çoxlarına Donbassdakı münaqişə 2008-ci ilin avqustunda Gürcüstanda baş verənləri xatırladır. "Hesab edirəm ki, bu Rusiyanın taktikasıdır-ölkələrdə situasyanı debalanslaşdırmaq və onlara öz gələcəklərini müəyyən etməyə imkan verməmək"-amerikalı diplomat deyib. (virtualaz.org)

Lakin diplomata görə Amerikanın yanaşması bunun əksidir. "Bizim mövqeyimiz ondan ibarətdir ki, ölkələrin öz gələcəklərini seçmək hüququ olmalıdır. Biz bu ölkələrin ərazi bütövlüklərini və suverenliklərini dəstəkləyirik. Biz dövlətlərin çiçəkləndiyi və öz yolunu seçdiyi, o cümlədən Rusiya ilə yaxşı münasibətlə qurduğu, habelə Avropa ittifaqı ilə iqtisadi yaxınlaşmaya malik olduğu, ABŞ-la regional stabillik və iqtisadiyyat məsələlərində tərəfdaşlıq yaratdığı region görmək istəyirik"-Corc Kent belə deyib.

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

**Amerika Rusiyaya qarşı da yeni sanksiyalar tətbiq edəcək. Bunu ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Hizer Nauret bildirib. Hələlik Moskvadan yeni sanksiyalarla bağlı rəsmi cavab verilməyib.**

# Rusiyaya qarşı da yeni sanksiyalar gəlir - Azərbaycanın atacağı addımlar

## Politoloq: "Sanksiyaların davamı bölgəyə yeni gərginliklər vəd edir..."

**Politoloq Əhəd Məmmədli** "Yeni Müsavat"a bildirdi ki, "əjdaha sanksiyalar" Rusiyaya tətbiq edilsə, bu durum Kreml üçün ciddi siqnal olacaq: "Moskvanı sanksiyalarla geri çəkilməyə məcbur etmək çox çətin olacaq. Rusiya əsrlərə söykənən dövlətçilik tarixinə malik ölkədir. Bu cür ölkələrin öhdəsindən gəlmək çox çətindir. Üstəlik, rus xalqı tarix boyu iki seçim arasında qalıb - ac olsa da, Rusiya imperiya olsun, bir də imperiya deyil, inkişaf etmiş Rusiya olsun. Rus şovinist təfəkkürü də həmişə birincini seçib. Lakin artıq XIX əsr deyil, heç XX əsr də deyil. XXI əsrdə sərhədlərin açıq olması sayəsində orta statistik rus ən azından Türkiyəyə gedir. Rus gəncliyi Avropanı gəzir. Bunun da səbəbi kimi Rusiyada demokrat təfəkkürlü qərbyönümlü güclü orta təbəqə yaranıb. Rusiyada ziyalı təbəqəsi də kifayət qədər azad fikirli olub. Bu sosial təbəqələr Putin iqtidarına müxalifdirlər. Hələ 2011-ci ildə bu müxalif təbəqə Putin rejiminə gücü müqavimət göstərdi. Həmin il parlament seçkilərində saxtakarlığa qarşı xalq meydanlara axışdı. Putin dövründə bu rus demokratik müxalifətinin ən böyük uğuru idi. Lakin rus müxalifəti sona qədər bu prosesi apara bilmədi. 2012-ci ildə Putinin ikinci prezidentlik dövrü başladı. Lakin bundan sonra da rus orta təbəqə meydanlara çıxıb özünü xatırlatdı. Rusiyada ciddi şəkildə korrupsiyadan narahatçılıq var. Yeni sanksiyalar Rusiyaya tətbiq edilsə, bu narazı kütlənin yeni nümayişlərinə, etirazlarına və mitinqlərinə səbəb ola bilər".




**Politoloq Putinin reytinqinin düşdüyünü də qeyd etdi:** "Təqaüd reformalarından sonra onsuz da Putinin reytinqi düşüb. Sanksiyaların davamında bu reytinq daha da düşə, nəticədə Rusiyada sosial partlayış baş verə bilər. Bu dövlətin tarixində iki dəfə inqilab baş verib və hər iki dəfə mövcud siyasi quruluş dağılıb. Söhbət 1917-1991-ci illərdə süquta uğrayan çar və kommunist rejimlərindən gedir. Üçüncü inqilab da növbəti süqutu istisna etmir. Belə bir dövlətin əhatəsində indiyə qədər nə etmişiksə onu etməliyik. Yəni maksimum dərəcədə Rusiya və İranda ola biləcək proseslərdən ölkə olaraq özümüzü uzaq tutmalıyıq. Amma uzaq tuta biləcəyikmi? İranda 40 milyon, Rusiyada isə haradasa 1-2 milyon civarında soydaşımız yaşayır. Hər iki qonşumuz da vəziyyət qarışsa, çox milyonlu əhaliyə malik olan həmvətənlərimiz tarixi vətənləri Azərbaycana axın edəcəklər. Nəzərə alsaq ki, Azərbaycanın öz daxilində 1 milyon qaçqın var, bunun ölkəmiz üçün nələr ola biləcəyini təsəvvür etmək elə də çətin deyir. Lakin bunun müsbət tərəfləri düşünürəm ki, daha çoxdur. Təsəvvür edin, Rusiyada vəziyyət qarışsa və bu Rusiyanın ən azı zəifləməsinə gətirib çıxarsa, Azərbaycan üçün Qarabağ problemini öz xeyrinə həll etmək üçün gözəl fürsət yaranacaq. Rusların başı daxili məsələlərinə qarışacaq, bu isə bizim üçün torpaqlarımızı qaytarmaq üçün yaxşı imkanlar yaradacaq. İranda da vəziyyət demokratikləşməyə doğru getsə, bu da bizim üçün xeyirlidir. İranda yaşayan 40 milyon soydaşımızın milli hüquqları bərpa edilsə, İran təkcə farsların deyil, türklərində dövlətinə çevrilsə, fars dili ilə yanaşı, türk dilində dövlət dili olsa, bu, həm İran, həm də Azərbaycan üçün gözəl perspektivlər vəd edir. Sanksiyaların davamı bölgəyə yeni gərginliklər vəd edir. Dünyanın gözü yüz ildir ki neftli, qazlı, təbii sərvətli müsəlman coğrafiyasındadır. Qərb özü monolit deyil. Məsələn, Britaniya, Avropa Birliyi heç də İranı sıradan çıxartmaq istəmir. Trampa gəldikdə onluq olsaydı, o Rusiya ilə dostluq edərdi. Vəziyyət qarışıqdır. ABŞ-da daxili elitalar qarşıdurması, Avropa Birliyində siyasi böhran bitməyənə qədər proseslər hər an gedişatını dəyişə bilər. Qərb artıq vahid orqanizm deyil. Qərbin özündə ABŞ-Britaniya, ABŞ-Avropa Birliyi, Britaniya-Avropa Birliyi qarşıdurmaları var. Britaniya, Avropa Birliyi ABŞ-ın İran sanksiyalarına qoşulmaq fikrində deyillər. Türkiyənin ABŞ və Avropa Birliyi ilə problemlərinə rəğmən, Britaniya ilə əməkdaşlıq qurulur. Rusiya ABŞ və Britaniya tərəfindən sanksiyalara məruz qalır, lakin Almaniya, Fransa, İtaliya ilə iqtisadi layihələr qurur. Deməyim odur ki, vəziyyət o qədər qarışıb ki, kimin-kimin yanında olub, kimi bitirmək istədiyi hələlik tam aydın deyil. Dəqiq bir məsələ aydındır ki, dünya artıq əvvəlki kimi olmayacaq. Bir və ikiqütblü dünya keçmişdə qaldı. Gələcək çox qütblü dünyanındır. Sona qədər balanslı siyasət yürüdə bilməyəcəyik. Ən azı ona görə ki, torpaqlarımızın bir hissəsi hələ də işğal altındadır. Azərbaycan İsveçrə və ya Türkmənistanın durumunda deyil ki, həmişə neytral qala bilsin. Gələcəkdə siyasətimizin necə olması qonşularımızın durumundan asılı olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Başına 12 milyon dollar qoyulan PKK-çılar kimlərdir?

## Vaşinqtonun PKK qərarı nə Ankaranı, nə də kürdləri razı salıb

**ABŞ hökuməti PKK rəhbərliyində təmsil olunan 3 nəfərin başına pul qoyub. Vaşinqton PKK lideri Murat Karayılan, Cemil Bayık və Duran Kalkan haqqında məlumat və yerini bildirən şəxslərə pul mükafatı təklif edib. Vaşinqton Murat Karayılan üçün 5, Cemil Bayık üçün 4, Duran Kalkan haqqında məlumat üçünsə 3 milyon dollar təklif edir.**




Türkiyədə "ən çox axtarılan terrorçu" siyahısında yer alan, "qırmızı bülletenlə" beynəlxalq axtarışa verilmiş Murat Karayılan 1954-cü ildə Şanlıurfa vilayətinin Birecik rayonunda anadan olub. 1979-cu ildə PKK terror təşkilatına qoşulub. Terror təşkilatının rəhbərliyində yer alıb, 1999-cu ildə Abdullah Öcalan həbs olunduqdan sonra PKK-nın rəhbərliyinə gətirilib. Daha sonra Kürdüstan Cəmiyyətləri Birliyi (türkcə KCK- K.R.) İdarə Heyətinə rəhbərlik edib. Həmçinin PKK-nın silahlı qanadı olan "Xalq Müdafiə Qüvvələri"nə (türkcə HPG - K.R.) rəhbərlik edir.

Cemil Bayık 1955-ci ildə Türkiyənin Elazığ vilayətinin Kaban rayonunda anadan olub. PKK-nın 18 nəfərdən ibarət təsisçi heyətində təmsil olunur. 1980-ci il 12 sentyabr çevrilişindən sonra Türkiyədən qaçıb. PKK-nın Suriya, Livan və Şimali İraqdakı düşərgələrinə rəhbərlik edib, eləcə də terror təşkilatının Avropa bürolarının əlaqələndiricisi olub. Daha sonra PKK liderlər şurasının üzvü olub, təşkilatın faktiki ikinci adamına çevrilib. Kod adı "Cuma"dır.

Duran Kalkan 14 avqust 1952-ci ildə Adana vilayətinin Tufanbeyli rayonunda anadan olub. Gənclik illərində PKK-ya qoşulub və tezliklə təşkilatın rəhbər heyətinə daxil ola bilib. 1980-1990-cı illərdə Almaniyada yaşayıb və bu zaman PKK-nın maliyyə işlərinə rəhbərlik edib. 1988-ci ildə Almaniya hökuməti tərəfindən məhkəməyə verilib və həbs olunub. 1993-cü ildə Şimali İraqa köçüb və burada "Kürdüstan Xalq Qurtuluş Ordusu" adlı qruplaşmaya rəhbərlik edib. Eyni zamanda PKK İdarə Şurasının üzvü seçilib. Daha sonra isə KCK İdarə Heyətinə seçilib.

Məsələ ondadır ki, ABŞ hökumətinin məhz indi PKK liderlərinin başına pul qoyması birmənalı qarşılanmayıb. ABŞ Dövlət Departamenti PKK-nı 1997-ci ildə "xarici terror təşkilatı" siyahısına salıb. 2001-ci ildə isə ABŞ administrasiyası PKK-nı "beynəlxalq terror təşkilatları" siyahısına daxil edib. Ancaq o zamandan bu yana PKK liderlərinin başına pul qoymaq kiminsə ağlına gəlməyib. Vaşinqtonun məhz indi PKK liderlərinin tapılması üçün mükafat təyin etməsi Türkiyədən şübhə ağırlıqlı reaksiyaya səbəb olub.

Türkiyə XİN bu qərarı "müsbət" addım kimi dəyərləndirsə də, prezidentin rəsmi sözçüsü İbrahim Kalın ABŞ hökumətinin bu addımını "gecikmiş qərar" adlandırıb. Kalın deyib ki, bu adamlar yeni terrorçu olmuş şəxslər deyil, uzun illərdir PKK-nın liderliyində təmsil olunurlar. Eyni zamanda Kalın əlavə edib ki, Ankara uzun illər terrorla mübarizədə nə Vaşinqton, nə də digər avropalı müttəfiqlərindən arzu edilən qədər dəstək ala bilməyib.

Türkiyə hazırda PKK ilə yanaşı Suriyada PYD və onun silahlı qanadı YPG ilə mübarizə aparır. Üstəlik, Ankaranın uzun müddətdir apardığı diplomatik cəhdlərə baxmayaraq Vaşinqton nəinki PYD-ni terror təşkilatları siyahısına əlavə etmir, əksinə, hələ də PYD/YPG ilə əməkdaşlığı davam etdirir, kürd silahlılarına hər cür hərbi-siyasi dəstək verir, hərbi texnika və silah yardımı edir.

Bu il noyabrın 1-dən etibarən ABŞ və Türkiyə ordusu Suriyanın şimalında, Fərat çayının qərb sahilində Menbic rayonunda birgə patrul həyata keçirməyə başlayıb. Bu əməliyyat iyun ayında ABŞ və Türkiyə arasında əldə olunmuş Menbic razılaşması əsasında keçirilib. Həmin anlaşmaya əsasən, dekabra qədər Menbicdən YPG silahlıları çıxılacaq, bölgədə ABŞ və Türkiyə ordusu birgə nəzarət edəcək. Lakin ABŞ və Türkiyə ordusunun Menbicdə birgə patrula başlamasının sabahı günü ABŞ hərbçilərinin YPG silahlıları ilə birgə foto çəkdirməsi Türkiyədə narazılıqla qarşılanıb. Ankara PYD-nin PKK ilə eyni təşkilat olduğunu, bu səbəbdən də Vaşinqtonun PYD-yə sanksiya tətbiq etməsini istəyir.

Türkiyənin müdafiə naziri Hulusi Akar isə deyib ki, Vaşinqtonun bir tərəfdən PKK liderlərinin başına mükafat təyin edib, digər tərəfdən YPG-yə silah və texnika yardımı qəbuledilməzdir. Akar deyib ki, Ankara PKK-dan heç bir fərqi olmayan YPG-yə də eyni davranışın sərgilənməsini istəyir.

Vaşinqtonun PKK liderləri barədə qərarından KCK da narazı qalıb. Separatçı-terrorçu kürd təşkilatı bəyan edib ki, Vaşinqtonun PKK liderləri barədə qərarı "Öcalana qarşı sui-qəsd hadisəsini xatırladır". Qruplaşmanın bəyanatında əsas vurğu İŞİD-ə qarşı mübarizəyə edilib. Çünki ABŞ hökuməti YPG-nin Suriyada məhz İŞİD-ə qarşı mübarizədə əsas dəstək qüvvəsi adlandırır.

**Vaşinqtonun son addımı bir mənada Türkiyənin kürdlərlə bağlı tələblərini neytrallaşdırmaq məqsədi güdür. Çünki PKK liderləri Türkiyə ərazisində fəaliyyət göstərir və ABŞ ordusunun PKK-ya qarşı hər hansı hərbi əməliyyatı yoxdur. Bu baxımdan PKK liderlərinin başına pul qoyulması daha çox formal xarakter daşıyır. Vaşinqtonun PKK və YPG-ni, yəni Suriya və Türkiyədəki kürd silahlılarını bir-birindən ayırdığını nümayiş etdirmək məqsədi güdür. Bu isə təbii ki, Ankaranı razı salmır.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

**Milli Məclisdə gedən büdcə müzakirələri Azərbaycanda yeni doğulan uşağa görə müavinət verilməsi ilə bağlı məsələni gündəmə gətirib. Parlament üzvlərinin bununla bağlı dediklərinə reaksiya verən maliyyə naziri Samir Şərifov deyib ki, bu sahədə Azərbaycanı digər ölkələrlə müqayisə etmək doğru deyil: "Məsələn, Belarusla müqayisə aparırlar. Orada vəziyyət fərqlidir. Belarusdakı demoqrafik vəziyyət Azərbaycandakı ilə müqayisə oluna bilməz, çünki arada fərq var. Yəni bu, hər dövlətdə fərqlidir. Amma bu məsələyə baxıla bilər".**

# Azərbaycanda ciddi demoqrafik çətinliklər gözlənilir

## Mənfi təcrübələrdən nümunə gətirmək deyil, nəticə çıxarmalıyıq...



**Qeyd edək ki, müstəqillik dövrünün ilkin mərhələsində Azərbaycanda sovet dövründən qalma qaydalar əsasında uşaqlara aylıq müavinət ödənilməsi praktikası davam etdirilib. 2006-cı ildə ünvanlı sosial yardım prosesi başlanan zaman buna son qoyulub. Ondan bəri ölkəmizdə hamiləliyə və doğuma görə müavinəti almaq hüququ da yalnız işləyən və sosial sığorta ödəyən şəxslərə verilir. Bu hüquq ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir. Doğuma və hamiləliyə görə məzuniyyət haqqı məzuniyyətə çıxılan aydan əvvəlki 12 ayın əmək haqqı məbləği əsasında hesablanır.**

Uşağa görə kim nə verir?

Azərbaycanda əksər MDB ölkələrindən fərqli olaraq, uşağın doğulması zamanı analıq kapitalının ödənişi nəzərdə tutulmur. Bunun əvəzində övladı dünyaya gələn valideynlərə(hansı işləyirsə ona) birdəfəlik müavinət verilir. Bu müavinət hazırda 99 AZN-ə bərabərdir. İki və ya daha çox uşaq doğulduqda birdəfəlik müavinət doğulan uşaqların sayına görə verilir.

Müqayisə üçün qeyd edək ki, bu müavinət Qazaxıstanda 2017-ci il 1 iyuldan etibarən 1, 2 və 3-cü uşağa görə 86 222 təngə, yaxud 465,6 manat, 4-cü və ondan sonrakı hər uşaq üçün isə 142 947 təngə və ya 771,9 manat təşkil edir.

Bundan əlavə, Qazaxıstanda uşaqların 1 yaşınadək işləməyən analara dövlət 1-ci uşağa görə ayda 13069 təngə(70,6 manat), 2-ci uşağa görə ayda 15 452 təngə (83,4 manat), 3-cü uşağa görə ayda 17812 təngə(96,1 manat), 4-cü və ondan sonrakı hər uşağa görə ayda 20 194 təngə(109 manat) "uşaqpulu" ödəyir. İşləyən analar üçünsə bu məbləğ 3-4 dəfə artıq olur.

S.Şərifovun haqqında bəhs etdiyi Belarusda 01 may-31 iyul 2017-ci il tarixinə 1-ci uşağın doğulmasına görə birdəfəlik müavinətin həcmi 1838,2 rubl və ya 1671,1 manat, 2-ci və sonrakı hər uşağa görə isə 2573,4 rubl və ya 2339,5 manat təşkil edib. Əkizlərə, üçəm və ya dördəmlərə görə əlavə olaraq hər uşaq üçün 367,64 rubl(334,2 manat) birdəfəlik kompensasiya ödənilir. Özü də ölkə üzrə orta aylıq əmək haqqına bağlı olduğu üçün bu məbləğlər hər il, əksər hallarda isə hər rüb artır. Hətta orta aylıq əmək haqqı azalsa belə, uşaq doğulandan əvvəlki yüksək məbləğə uyğun hesablanır.

Bundan əlavə, Belarusda uşaqların 3 yaşınadək hər ay valideynlər 1-ci uşaqda ölkə üzrə orta aylıq əmək haqqının 35 faizi həcmində - ötən ilin ilk yarısı üçün 261,38 rubl(237,6 manat), 2-ci və sonrakı hər uşaqda isə 40 faizi həcmində - 298,72 rubl(271,6 manat) müavinət("uşaqpulu") alıblar. Əlil uşaqlar üçün bu məbləğ 336,06 rubl(305,5 manat) təşkil edib. Əgər ana işləyirsə və tutalım ki, uşaq 6 aylıq olandan sonra işə çıxırsa, ailədəki yaxın qohumlardan kimsə(nənə, baba, xala, dayı, bibi və sair) məzuniyyət götürüb uşağa baxarsa, müavinət yenə ödənilir. Bundan əlavə, 3 yaşınadək uşağa baxan valideynin ondan başqa 3-18 yaş arasında uşaqları da varsa, onların hər birinə görə ayda 91,91 rubl(83,55 manat) ödənilir.

Rusiyada 2-ci uşaq doğulanda anaya "analıq kapitalı" adlı birdəfəlik müavinət ödənilir ki, ötən il onun həcmi 453026 rubl və ya 13 545,5 manat təşkil edib.

Azərbaycanda isə işləyən analar uşağa görə məzuniyyət götürdükdə uşağın 1 yaşınadək görə ayda 30 AZN, 1-3 yaşadək isə 15 manat müavinət alırlar.

Rusiyada uşaqların 1,5 yaşınadək 1-ci uşağa ayda minimum 2718,35 rubl(81,2 manat), 2-ci və ondan sonrakı hər uşağa görə ayda minimum 5436,67 rubl(162,5 manat) müavinət ödənilir. Bundan əlavə, 3-cü və ondan sonrakı hər uşaq 3 yaşına çatanadək valideynlər hər ay uşaqlar üçün müəyyənləşdirilən regional yaşayış minimumu həcmində vəsait də alırlar.

Azərbaycanda doğumun stimullaşdırılması zərurətə çevrilir

Yeni qəbul olunmuş Məşğulluq Strategiyasına görə, Azərbaycan demoqrafik baxımdan sabit inkişaf edən ölkə sayılır. Belə ki, 2006-2017-ci illər ərzində ölkədə əhalinin orta illik artım sürəti 1,3 faizə yaxın olub ki, bu da Avropa ölkələri arasında ən yüksək göstəricilərdən biri hesab edilir.

Lakin ölkə üzrə əhalinin təbii artımında bir sıra problem yaradacaq meyllər indidən hiss olunmaqdadır. Belə ki, əhalinin yaş strukturu üzrə proqnozlar əsasında müəyyən olunub ki, növbəti illərdə ölkə əhalisinin təbii artımı nisbətən azalacaq və bu, 15 yaşadək olanların xüsusi çəkisinin 2025-ci ildən sonra aşağı düşməsi ilə nəticələnəcək. Pensiya yaşına çatmış əhalinin sayının 2015-ci ildəkinə (841 min nəfər) nisbətən 2030-cu ilədək 2 dəfə artacağı proqnozlaşdırılır ki, bu da dövlətin sosial yükünü artıra, həmçinin yaşlı insanların sosial təminatında əlavə tədbirlərin həyata keçirilməsi zərurətini yarada bilər.

2017-ci ildə Azərbaycanda 15-24 yaş arasında şəxslərin sayı 1,5 milyon nəfərə yaxın olubsa, 2025-ci ildə bunun 17 faiz az olacağı, sonrakı illərdə isə artaraq 2030-cu ildə 2015-ci ilin səviyyəsinə (1,6 milyon nəfər) çatacağı proqnozlaşdırılır.

Azərbaycanda 15-49 yaş arası hər min qadına düşən doğum sayı da sürətlə azalmaqdadır. Belə ki, bu göstərici 1992-ci ildəki 110,8-dən 2017-ci ildə 63,3-ə düşüb. Ölkə üzrə 1 və 2 uşaqlı ailələrin sayı sürətlə artmaqdadır və bunu hər kəs öz ətrafında açıq görə bilir. Rəsmi statistikaya görə, 1999-cu ildə aparılan siyahıyaalmanın məlumatlarına əsasən, 18 yaşadək uşaqları olan ailələr arasında 1 uşaqlı ailələrin sayı 22,5 faiz, 2 uşaqlı ailələrin sayı 35,3 faiz, 3 uşaqlı ailələrin sayı 25,5 faiz, 4 və daha çox uşaqlı ailələrin sayı 16,7 faiz təşkil edib. 2009-cu ildə siyahıyaalmaya əsasən isə 1 uşaqlı ailələr 30,1 faizə, 2 uşaqlı ailələr 40,3 faizə yüksəlib, 3 uşaqlı ailələr 19,9 faizə, 4 və daha çox uşaqlı ailələr isə 9,7 faizə düşüb. 2009-cu ildən bəri baş verən dəyişikliklər yəqin ki, gələn il keçiriləcək siyahıyaalmada üzə çıxacaq. Amma görünən odur ki, bu dəyişiklik çoxuşaqlı ailələrin xeyrinə olmayacaq.

**Reallıq budur ki, Azərbaycan hökumətinin demoqrafik sahədə gözlənilən problemləri nəzərə almaqla, doğumu stimullaşdırmağa indidən başlaması zəruridir. Ümid edirik ki, hökumətdə heç də hamı maliyyə naziri kimi düşünmür.**

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Toy mövsümü başladı: ekoloji normalara əməl etməyənlər hələ də var

## ETSN: "Restoranlarda tüstü təmizləyici qurğuların quraşdırılması istiqamətində işlər sürətlə davam edir"

**Bu gün Səfər ayının son günüdür. Artıq noyabrın 9-dan iki aydır boş qalan restoranlarda, şadlıq saraylarında toy məclisləri təşkil olunacaq. Bəs yenə də restoranların sıx yerləşdiyi əraziləri tüstü bürüyəcəkmi?**



Məlumat üçün öncə qeyd edək ki, prezident İlham Əliyev oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir sıra əhali, ölkə üçün vacib məsələlərə toxundu. Ölkə başçısı həmçinin havanı çirkləndirən məişət obyektlərinə də ciddi xəbərdarlıq etdi. Prezident bildirdi ki, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq.

Prezidentin bu çıxışından sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyində mətbuat konfransı keçirildi və bildirildi ki, bu ilin may ayından bugünədək Bakı şəhərinin inzibati rayonları və Abşeron rayonu ərazilərində fəaliyyət göstərən ictimai-iaşə obyektlərindən 217-nin ətraf ərazilərində monitorinq və araşdırma aparılıb. Qeyd olundu ki, onlarla görüşlər keçirilib və qurğuların quraşdırılması məqsədilə vaxt verilib. Verilmiş vaxt müddətində 217 iaşə obyektindən yalnız 25-də qurğu quraşdırılıb, digər 129 obyekt isə qurğu quraşdırılması üçün şirkətlərlə müqavilə bağlayıb. Həmin tarixin məlumatına görə,tövsiyə və göstərişlərə əməl etməyən 63 obyekt barəsində sənədləşmə işləri aparılıb, bundan 7 obyekt sahibi vəzifəli şəxs qismində 23 000 manat məbləğində cərimə olunub, 11 obyektin hüquqi şəxs qismində cərimə olunması üçün toplanmış sənədlər məhkəməyə göndərilib, digər iaşə müəssisələri barəsində isə sənədləşmə işləri aparılır.

**"Yeni Müsavat"ın əməkdaşı Nizami rayonu ərazində yerləşən bir neçə restorandan bu qurğu ilə bağlı hansı tədbirləri gördüklərini soruşub.**

Restoranlardan deyildi ki, ölkə başçısının məlum çıxışından sonra problemin aradan qaldırılması istiqamətində işlər aparırlar. Restoran rəhbərləri söylədilər ki, ətraf mühiti çirkləndirməmək üçün lazımı avadanlığı quraşdıracaqlar.

**ETSN-dən isə "Yeni Müsavat"a bildirildi ki, təkcə Nizami rayonu ərazisində deyil, digər ərazilərdə yerləşən restoranlarda, kafelərdə də müvafiq qurğunun quraşdırılması işləri aparılır.** Qeyd olundu ki, iaşə obyektləri gözlənilməndən də qısa müddətdə bu qurğuların quraşdırılmasına başlayıb, işlər aparırlar. Hansı restoranların qaydalara əməl edərək qurğunu quraşdırması ilə bağlı ictimaiyyətə konkret məlumat verəcəklər.

Oktyabrın 26-da nazirlik məlumat yayaraq bildirmişdi ki, 9 iaşə obyektinin fəaliyyətinin dayandırılması üçün məhkəmə orqanları qarşısında vəsatət qaldırılacaq. Oktyabrın ayının sonuna olan məlumata görə, 301 ictimai iaşə obyektlərinin fəaliyyət göstərdiyi ətraf ərazilərdə nazirliyin mütəxəssisləri tərəfindən monitorinqlər aparılıb. 53 ictimai iaşə obyektində müasir qaz-toztutucu qurğular quraşdırılıb, 180 obyektdə quraşdırma işləri aparılır. 58 obyekt barəsində isə qanunamüvafiq tədbirlər görülüb, akt və protokol tərtib olunub, cərimə tətbiq edilib.

**Nazirlikdən "Yeni Müsavat"a o da bildirilib ki, noyabrın 7-də ETSN-ə Neft Emalı Zavodundan havaya atılmalarla bağlı daxil olan məlumat əsasında ətraf ərazidən götürülən nümunələrin üzərində aparılan analizlərin nəticələri məlum olub. Nəticələrə görə qaz birləşmələrinin sanitar normadan artıq olduğu müəyyən edilib. Faktla bağlı Neft Emalı Zavodunun hüquqi şəxs qismində məsuliyyətə cəlb edilməsi üçün sənədlər məhkəməyə göndəriləcək.**

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

**ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun regiona, o cümlədən Ermənistana səfəri, İrəvanda bəyan elədiyi fikirlər və həmin fikirlərə erməni rəsmilərinin ehtiyatsız reaksiyaları hələ də müzakirə mövzusudur. Sanki cənab Bolton "arı yuvasına" çöp dürtdü və getdi. Xüsusən də Ermənistan rəhbərliyinin səfərlə bağlı ikibaşlı açıqlamaları, belə görünür ki, ən çox Rusiyanı məmnun etməyib.**

# İrəvan Kremlin qəzəbində - Moskvadan daha bir təpki

## Rusiya ombudsmanı Ermənistanı rus dilini və rus dilliləri sıxışdırmaqda ittiham etdi; Kremlin "düyməyə" basacağı gün uzaqda deyil, çünki...



**"Yeni Müsavat" xatırladır ki, Bolton İrəvanda Ermənistan rəhbərliyinə Rusiya təsirindən uzaqlaşmağı, Türkiyə ilə sərhədlərin açılması üçün seçkilərdən sonra Qarabağ probleminin həllində real addımlar atmağı və Amerika silahları almağı təklif edib. Baş nazir əvəzi Nikol Pşainyan isə Rusiyanı qıcıqlandıracaq tərzdə bəyan etmişdi ki, "silahlanma məsələsində Ermənistan üçün hansısa məhdudiyyət yoxdur". Yəni Paşinyan işarə vurmuşdu ki, işğalçı ölkə ABŞ-dan da silah ala bilər. Hərçənd buna onun maliyyə resursları yox səviyyəsindədir.**

Düzdür, bundan dərhal sonra müdafiə naziri əvəzi David Tonoyan vəziyyətin ciddiliyini nəzərə alaraq, Paşinyanı "təmizə çıxarmaq" və Rusiyanı sakitləşdirmək üçün bildirdi ki, Ermənistanın Rusiya silahlarından savayı başqa ölkələrin silahına ehtiyac yoxdur. Ancaq iş-işdən keçmiş, Moskvanın dalağı artıq sancmışdı. İndi tam dəqiqdir ki, Putin Paşinyan iqtidarına etibar eləmir.

*****

Bu təhlükəni anlayan erməni rəsmiləri son günlər yenidən Moskvanın qayğılarını azaltmaq və onu sakitləşdirmək üçün səylər göstərirlər. Onlardan biri də Ermənistanın Rusiyadakı səfiri Vardan Toqanyandır.

"Biz tarixi yaddaşa hörmət edərək yeni Ermənistan qururuq. Bizim xarici siyasətimizdə ölkəmizi geosiyasi döyüşlərin və ya geosiyasi rəqabətin arenasına çevirmək barədə heç bir göstəriş yoxdur". Bu sözləri erməni səfir deyib (teleqraf.com). O, ABŞ prezidentinin müşaviri Con Boltonun "Ermənistan tarixi ənənədən imtina etməlidir" fikrini də şərh edib.

**Sitat**: "ABŞ prezidentinin müşavirinin nə dediyini başa düşmürük. Bütün millətlər kimi ermənilər də reallığın tarixi hissəsində öz gələcəyini qurub. Mənim fikrimcə, tarixə hörmət etmək lazımdır. Buna baxmayaraq, uzun müsahibəsində cənab Bolton Ermənistan-Türkiyə sərhədinin açılması ehtimalı haqqında danışdı, güman ki, Ermənistan-Türkiyə münasibətləri ilə əlaqədar fikirlərini tarixi keçmişlə əsaslandırır. Rusiyalılarla əlaqələrimizdən danışarkən, nəzərə almaq lazımdır ki, bizim ortaq keçmişə bağlı olan bir neçə əsrlik mənəvi və mədəni əlaqələr tariximiz var. Strateji tərəfdaşlıq səviyyəsindəki hərbi-siyasi, mənəvi və mədəni sahələrdəki əlaqələrimizi də nəzərə alsaq, bizim qurduğumuz xarici siyasətin istiqamətini görmək o qədər də çətin olmamalıdır".

Vardan Toqanyan ardınca Ermənistanın xarici siyasət istiqamətində Rusiyanın yerini dəyişdirməyəcəyini vurğulayıb və əlavə edib ki, "Ermənistan üçün Rusiya ilə strateji münasibətlər toxunulmazdır". Ancaq söz ayrı, əməl ayrı. Bu gün Ermənistanda yaşanan ictimai-siyasi ovqat, hakimiyyətin də körüklədiyi anti-Rusiya isteriyası ayrı mətləblərdən xəbər verir.

*****

Gerçək belədir ki, Rusiyanın Ermənistanın hazırkı qərbyönlü rəhbərliyindən narazılığı qalır və artmaqdadır. Bu da növbəti fakt: Rusiyanın insan haqları üzrə müvəkkili (ombudsman) Tatyana Moskalkova dünən bir sıra xarici ölkələrdə, o cümlədən Ermənistanda rus dilinin sıxışdırıldığını bəyan edib.

"Yeni Müsavat"ı "RİA-Novosti"yə istinadən verdiyi məlumata görə, ombudsman deyib: "Bir sıra dövlətlərdə rus dilinin öyrənilməsinin yasaqlanması böyük problemlər yaradır və bu, rus dilində danışanların hüquqlarının kobud şəkildə pozulması deməkdir. Bunlar Baltikyanı dövlətlər, Ermənistan, Qırğızıstan və digər ölkələrdir. Orada insanları öz uşaqlarını rus dilində təhsil almaqdan məhrum edirlər".

Qeyd edək ki, Rusiyadan Ermənistanın ünvanına bu kimi narazılıqlar indiyədək adətən qeyri-rəsmi səviyyədə səslənirdi. Ancaq artıq Moskvadan rəsmi şəxslərin təpkiləri gəlməyə başlayıb. Ermənistanda isə xüsusən də "məxməri inqilab"dan sonra rus dilinin, bütövlükdə rus təsirini azaltmaq üçün məqsədyönlü iş aparılır. Bunu heç gizlətmirlər də.

Məsələn, ölkənin yeni təhsil və elm naziri Araik Arutunyan vəzifəsinə keçər-keçməz açıq şəkildə bəyan edib ki, rus dilində yazışmalar qəbul edilməyəcək. Az sonra İrəvandakı Rus Dram Teatrının qapadılacağı xəbəri yayıldı. Halbuki Azərbaycanda belə bir problem yoxdur. Əksinə, burada rus dilinin işlənmə dairəsi genişlənib. Rus məktəblərinə də təhlükə yoxdur. Hərçənd, Rusiya bizim yox, işğalçı ölkənin hərbi-siyasi müttəfiqidir.

Məsələ də ondadır ki, bütün bu neqativ proseslər Ermənistanın yeganə varlıq qarantı olan Rusiyada diqqətlə izlənir. Kremlin "səbir kasası"nın getdikcə dolduğunu da söyləmək olar. Ancaq belə görünür ki, Moskva "düyməyə" basmaq üçün erkən parlament seçkilərinin yekununu gözləyəcək.

**İstənilən halda, "düyməyə" mütləq basılacaq. Çünki söhbət təkcə Rusiya mədəni faktorunun, rus dilinin Ermənistanda sıxışdırılmasından yox, bütövlükdə Rusiya amilini, Rusiyanın özünü ölkədən sıxışdırıb çıxarmaqdan gedir. Nikol Paşinyan iqtidarının əsas hədəfinin də işğalçı ölkəni tədricən Rusiyadan uzaqlaşmaq olduğuna indi az adam şübhə edir...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Milyonçu oğrular üçün dumanlı cənnət



**Samir SARI**

**Bir humanist həkim olur, bir səhər işə getmək üçün avtomobilinə yaxınlaşanda görür ki, maşının sağ pəncərəsi sındırılıb, avtomobilin mücrüsündəki bir neçə yüz manat aparılıb. Həkim şikayət edir, polis əməliyyat keçirir, bir neçə gündən sonra qarətçini tuturlar, həkimi də polis bölməsinə çağırırlar ki, gəl, bax, sənə zərər vuran budur. Doktor polis bölməsinə gəlir, görür ki, onun maşınının şüşəsini sındıran və pulunu aparan qonşunun oğludur. Həmişə başqalarına yardım edən, əliaçıq həkim pis olur, deyir, ay oğul, sən elə səhər-səhər mənə yaxınlaşsaydın ki, əmi, xərcləməyə pul lazımdır, mən sənə bu qədər pul verərdim, ta maşının şüşəsini niyə sındırırdın. Qarətçi gənc onun bu ritorikasının qarşısında özünü sındırmır, deyir: "Başa düşmədim, niyə minnət götürməliydim ki... hazır, apardım də..."**

Ölkə minnət götürməyən oğrularla doludur. İfşa olunanı var, olunmayanı var. İfşa olunanlarla olunmayanlar 1-in 100-ə nisbətindədir. Yəni biz o oğrulardan 1-2-ni tanıyır, 1001-ni tanımırıq.

"Tanımırıq" deyəndə də düzgün çıxmır, biz ölkədəki oğruların, demək olar ki, hamısını tanıyırıq, sadəcə, avropalı hüquqçu-mütəfəkkirlərdən xeyli əvvəl təqsirsizlik prezumpsiyasını icad etmiş əcdadlarımız kimi, "Tutulmayan oğru, xandan, bəydən doğru" prinsipinə riayət edirik.

Onu da anlayırıq ki, o oğruların çoxu tutulmayacaq.

Daha bir dəqiqləşdirmə: Oğru deyərkən, söhbət hindən toyuq oğurlayanlardan, ərzaq dükanından çörək çırpışdıranlardan, qonşunun toğlusunu əkişdirənlərdən getmir. Ölkənin bütün elə oğrularının illik dövriyyəsi bir büdcə oğrusunun günlük maxinasiyası qədər deyil.

Məsələn, hazırda bütün Avropa əhli Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyevin ömür-gün yoldaşı Zamirə Hacıyevanın Londonda xərclədiyi milyonlardan və onun hazırda həbsə alınmasından danışır.

İndi baxaq görək, ölkənin bütün toyuq, çörək, toğlu, portmanat, ayaqqabı oğrularının il ərzində oğurladığı əmtəələrin toplam qiyməti Zamirənin bir dəfə butikdə xərclədiyi qədər olarmı?

Heç cür olmaz. Xanım 22 min dollarlıq it gəzdirir, 3 min avroluq şərab içir, 15 milyonluq villada yaşayır, 21 milyonluq alış-veriş edir. 5 manatlıq kənd toyuğunu oğurlayanlar isə türmədə yatır, hər il bayramlarda əfv gözləyirlər.

Zamirə xanım bu boyda pulu əlinin zəhməti ilə qazanmayıb, bunu onun əri dövlətdən, xalqdan oğurlayıb - eynən həkimin maşınının şüşəsini sındırıb pulu oğurlayan qarətçi kimi.

Ancaq heç demə, toyuq oğrusundan fərqli olaraq, milyonları oğurlayanların müdafiəçiləri çox olurmuş. Neçə gündür, fikir verirəm, xüsusilə də sosial şəbəkələrdə belə fikirlər yazılır: "Tək o deyil ki, hamı oğurlayır"; "Qoy o biri oğruları da tutsunlar"; "Görün, hələ başqaları nə qədər oğurlayıb" və s.

Bütün bu fikirlərdə böyük həqiqət payı var, amma bu, eyni zamanda oğruya bəraət qazandırır. O, heç kəsin minnətini götürmədən çıxıb deyə bilər ki, yaxşı eləmişəm, hamı oğurlayırdı, mən də oğurladım. O zaman camaat deyəcək, kişi qızıdır, necə də səmimidir, düz deyir.

Bu halda da oğurluq qəbahət əməllər kateqoriyasından çıxır, normaya çevrilir.

Deməli, bütün oğrulara qarşı güzəştsiz olmaq lazımdır - necə ki, toyuq oğrularına qarşı cəmiyyət də, dövlət də, qanunlar da güzəştsizdir, büdcə oğrularına qarşı da elə olmaq gərək.

Düzünə qalsa, mən oğurluq pullarla Londonda kef edən Zamirə Hacıyevanın gələn ilin yayında Azərbaycana ekstradisiya ediləcəyinə inanmıram. Əgər onun yerində supermarketdən ayaqqabı oğurlayan başqa bir soydaşımız olsa, bəlkə də tutub göndərərdilər. Amma milyonçu oğrunu ekstradisiya etmək asan deyil. Budur, xəbər gəlir ki, onun yarım milyonunu "zamin pulu" adıyla alıb, ev dustaqlığına buraxıblar. Hələ bəlkə də gələn il 5-6 milyonun da alacaq, siyasi məhbus statusu verəcəklər ki, Azərbaycanda həyatına təhlükə var.

Çünki Londonda da haram pula qonmağa hazır dələduzlar çoxdur. Elə olmasaydı, dünyanın hər yerindən milyonçu oğrular pullarını dumanlı Albiona daşımaz, orada özləri üçün cənnət guşələri düzəltməzdilər.

**İngilislər də milyon oğurlamağın yolunu belə tapıblar, hesab edirlər ki, oğrudan oğruya halaldır.**

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin hazırda həbsdə olan sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva Londonda məhkəmənin qərarı ilə ev dustaqlığına buraxılıb.**

# Zamirə Hacıyeva Londonda ev dustağı edildi

## Həbsdəki bankirin xanımı hər gün polis bölməsinə baş çəkməlidir, axşam 21.00-dan səhər 06.00-dək evdən bayıra çıxa bilməz



"Report"un London bürosu xəbər verir ki, Böyük Britaniyanın Kral Ədalət Məhkəməsinin noyabrın 8-də keçirilən iclasında qəbul olunan qərarla Zamirə Hacıyeva hər gün 09.00-dan günorta saatlarınadək polis bölməsinə baş çəkməlidir, axşam 21.00-dan səhər 06.00-dək evdən bayıra çıxa bilməz. Bundan başqa, məhkəmə qərarına əsasən Z.Hacıyevanın pasportu polisdə saxlanılacaq.

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin hazırda həbsdə olan sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva ötən həftə İngiltərənin paytaxtı Londonda saxlanılıb. 55 yaşlı Z.Hacıyeva Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində həbs olunub. Bu sərəncama əsasən, o, var-dövlətini hansı mənbədən əldə etdiyini açıqlamalıdır.

UWO, Britaniyada potensial çirkli pullara sahib olan şübhəli korrupsioner xarici rəsmiləri hədəfləmək üçün yeni qanundur.

Londonun Vestminster rayonunun Magistrat Məhkəməsində məlum olub ki, o, Azərbaycan tərəfinin tələbi əsasında London polisi tərəfindən saxlanılıb. Z.Hacıyevanın həbsi onun Bakıya ekstradisiyası barədə xahiş ilə bağlıdır. Məlumata görə, ona qarşı iki mənimsəmə ittihamı irəli sürülüb.

Zamirə Hacıyeva 10 il ərzində Londonun məşhur dükanı "Harrods"da 16 milyon funt sterlinq (35.85 milyon manat) xərcləyib. Bu, gündə 4000 funtdan çox xərcləmə deməkdir. O, Londonda alış-verişləri üçün ödənişi ərinin bankının 35 ədəd kredit kartı ilə edib.

**Yeddi il əvvəl Britaniyanın Virgin Adalarında mənzillənən bir şirkət Londonun qərbində "Harrods" alış-veriş mərkəzinin yaxınlığında bir evə 11.5 milyon funt (15.13 milyon dollar) ödəyib.**

2013-cü ildə Zamirə Hacıyevanın nəzarət etdiyi başqa bir şirkət Berkshire qraflığında, Ascot kəndinin yaxınlığında təmtəraqlı qolf kursu və əmlakını - "Mill Ride Golf Club"u almaq üçün 10 milyon funt (13.15 milyon dollar) xərcləyib.

Rəsmi məlumatlar cütlüyün "Harrods"un bahalı avtomobil parkında iki xüsusi yerə sahib olduqlarını və Zamirə Hacıyevanın 42 milyon funta (55.24 milyon dollar) "Gulfstream G550 jet" təyyarəsini aldığını da ortaya çıxarıb.

Ötən həftə onun ailəsinə aid olan 400 min sterlinqdən çox dəyəri olan zinət əşyaları müsadirə edilib və "Christie" auksionunda satışa çıxarılması nəzərdə tutulub.

"Mən Zamirənin Azərbaycana ekstradisiyasına çox pis baxıram. Azərbaycana gəlməsi yaxşı işdir bəyəm? Onun nə təqsiri var?", - bu sözləri "Turan"a Zamirə Hacıyevanın baldızı Əminə Hacıyeva söyləyib. Ə.Hacıyeva qardaşı arvadı ilə bağlı Azərbaycan hüquq-mühafizə orqanlarının obyektiv araşdırma aparacağına inanmır. "Cahangirlə bağlı obyektiv istintaq aparılıb ki, Zamirəylə bağlı da aparılsın?", - deyə o sual edib. **Ə.Hacıyeva Z.Hacıyevanın təqsirsiz olduğunu düşünür:** "Onunla bağlı cinayət işi açılıb, burda kartında 4 milyon yarım borcu vardı. Bu borc da nədən əmələ gəlib Cahangir məhkəmədə izah etmişdi. O, Zamirənin adına səhmlər almışdı, 4 milyonluq. Həmin səhmləri götürsünlər, borc bağlansın. Etmirlər. Çünki belə lazımdır".

**Ə.Hacıyeva qardaşı arvadının saxlanılmasını "burdan gedən sifariş" sayır və əlavə edir:** "Hər halda hamı başa düşür ki, bu sifariş haradan gedir. Arvadı orda necə milyonlar xərcləyə bilər ki, yaxın adamlarının hamısına borcludur? Haradan çıxır bu daş-qaş? Kim belə vəziyyətə düşürsə, hər şey onun üstünə yıxılır, vəssalam... Bu qanun Moskva oliqarxları ilə bağlı çıxarılmışdı, Rusiyaya qarşı atılan addım idi. Bəs nə oldu bir Zamirəni tutdular? Hamı başa düşür ki, Zamirənin həbsi sifarişdir. Cahangirlə Zamirənin başında çatladı. Bunu etdilər ki, hamı bilsin belə də ola bilər..."

**REAL Partiyasının təmsilçisi, iqtisadçı Natiq Cəfərli** "Turan"a deyib ki, Böyük Britaniya qanunlarına görə ekstradisiya asan proses deyil: "Zamirə xanımın çoxuşaqlı ana olduğu, Britaniyada yatırımlar etməsi nəzərə alınacaq və bu proses illərlə uzana bilər".

N.Cəfərlinin ehtimalına görə, Z.Hacıyeva yenidən həbs edilib ekstradisiya edilərsə məhkəmədə bankla bağlı cinayətlərin ört-basdır edilməsi mümkündür. İqtisadçı Beynəlxalq Bank rəhbərliyinin özbaşına bu qədər vəsaiti mənimsəməsinin şübhə doğurduğunu, burda açılmayan məqamların olduğunu bildirir, hətta gedişatda yüksəkvəzifəli məmurların adlarının hallandırılmasını da mümkün sayır.

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# REAL 40 min imza kampaniyasına start verir - partiya üç təklifini reallaşdıra biləcəkmi?



## Azər Qasımlı: "Bu imzaları toplamaq bizim üçün çətin olmayacaq..."

**REAL Partiyası üç qanun layihəsinin Milli Məclisə təqdim edilməsi üçün konstitusiyanın 96-cı maddəsini əsas götürərək imzatoplama kampaniyasına başlamaq fikrindədir. Bu barədə REAL sədri İlqar Məmmədov müraciət yayıb.**

Siyasi partiya Bakı merinin seçki yolu ilə seçilməsi, devalvasiyadan doğan kredit faizləri probleminin ədalətli həlli, dövlətin ali məktəblərdə təhsil alan tələbələrin təhsil haqqını tam ödəməsi ilə bağlı üç qanun layihəsi hazırlayıb. "REAL Partiyası qanunvericilik təşəbbüsü ilə qanun layihələrinin Milli Məclisə təqdim edilməsi məqsədi ilə 40 min seçicinin imzasını toplamağa start verir. Siz də imza toplamaqda bizə dəstək olun. Bu sizin konstitusiyada yazılmış haqqınızdır" - partiya lideri seçicilərə müraciət edib.

**Bəs partiya 40 min imzanın öhdəsindən gələ biləcəkmi? REAL idarə heyətinin üzvü Azər Qasımlı imzatoplama kampaniyasının hələ start götürmədiyini bildirdi:** "İmzatoplama kampaniyası bu ayın ortalarından sonra başlayacaq. İndi hazırlıq işləri gedir. Bu sadəcə, imza kampaniyası olmayacaq. Biz bunu böyük bir siyasi kampaniyaya çevirməyi düşünürük. Yalnız REAL-ın üzvlərini deyil, həm də könüllüləri bu prosesə cəlb etməyi düşünürük. Həm maliyyə, həm də imzaların yığılması nöqteyi-nəzərindən düşünürük ki, elə ciddi problemimiz olmayacaq. Əgər hakimiyyət kampaniyanın qarşısını almağa cəhd etməsə, yaxın zamanda imzaları toplaya biləcəyik. Bizim indiyə qədər imzatoplama təcrübəmiz olub. 2013-cü ildə İlqar Məmmədovun prezidentliyə namizədliyini irəli sürdüyümüz zaman 8 gün ərzində 42 min 600 imza toplamışdıq. O prosesdə 500-ə yaxın adam kampaniyada iştirak edirdi. Biz bunu idarə etməyi bacarmışdıq. Çox ciddi bir təcrübəmiz var. Azərbaycanda tək-tük siyasi partiya tapılar ki, 8 gün ərzində 40 mindən çox imza toplasın. Belə bir təşkilat açığı, tanımıram. İkinci təcrübəmiz parlament seçkiləri ilə bağlı oldu. 15 namizədimiz var idi və hər namizəd də 500-dən çox imza toplamışdı Bu imzaları partiya üzvlərimiz yığmışdı. 2016-cı ildə də biz imza kampaniyasına başlamışdıq. İki mindən çox imzanı bir həftə ərzində yığmışdıq. Ondan sonra 40 min imza toplayacaqdıq. Amma bildiyiniz səbəblərdən bunu edə bilmədik. Təşəbbüs qrupumuz qeydə alınsaydı, 40 min imzanı da yığacaqdıq. İndi də düşünürük ki, bu imzaları toplamaq bizim üçün çətin olmayacaq. Hazırda bizim təkliflər çox aktualdır. İnsanların şəxsi həyatlarına, onların sosial vəziyyətlərinə müsbət mənada təsir edəcək. Bakıya yeni statusun verilməsi, paytaxtda Böyük Şəhər Bələdiyyəsinin yaradılması, seçkilər keçirilməsi təkliflərimiz bütövlükdə ölkəmizi əhatə etməsə də, gələcəkdə bunun ciddi təsirlərinin olacağı istisna deyil. Digər şəhərlərimizdə də belə bir seçkilərin keçirilməsi mümkün olacaq. Bunun da həmin şəhərlərdə yaşayan insanların həyatına müsbət təsiri olacaq. Bakıda adicə yağış yağır, problemlər aşıb-daşır. Problemləri də hərə bir şəxsin üzərinə atır. İnsanların konkret olaraq seçdikləri bir şəxs yoxdur ki, tələblərini ondan etsinlər. Kreditlərlə bağlı təklifimiz də var. Burada vətəndaşlara, banklara, iş adamlarına dəyən ziyanın dövlət tərəfindən ödənilməsini təklif edirik. Bu insanların maliyyə vəziyyətlərinə ciddi şəkildə təsir edəcək məsələdir. Buna görə insanların bu məsələdə bizə dəstək verəcəklərini düşünürük. Üçüncü təklifimiz də təhsil haqları ilə bağlıdır. Təhsilin pulsuz olmasını vacib sayırıq. Dövlət məktəblərinə daxil olan tələbələrin valideynləri pul ödəməməlidir. Bu hazırda abituriyent olan və 2019-cu ildə ali məktəbə daxil olmaq istəyənlərin valideynləri ilə bağlı birbaşa məsələdir. İnsanların bu məsələdə də bizə dəstək verəcəklərini düşünürük".




**REAL funksioneri imzaların ilk növbədə Bakıda toplanacağını qeyd etdi: "İmzalar 60-dan çox dairə üzrə toplanacaq. İlk olaraq Bakıda imza yığılacaq. Amma Azərbaycanın demək olar bütün bölgələrindən imza toplamaq niyyətindəyik. İmzatoplama kampaniyası üçün hansısa bir hakimiyyət qurumundan icazə almağımız kimi prosedura qaydası yoxdur. Konstitusiyanın 96-cı maddəsində açıq şəkildə yazılıb ki, Milli Məclis, ölkə prezidenti, Ali və Konstitusiya Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və 40 min seçici imzasını verən qurum qanunvericilik təşəbbüsü ilə çıxış edə bilər. Bu hansı formada, necə bir şəkildə olmalıdır kimi qanunvericilik bazası hazırlanmayıb. Ona görə bu məsələdə tam sərbəstik. Hüququmuzdan sadəcə istifadə edirik. Kimsə bu hüququmuzdan istifadə etməməklə bağlı bizə nəsə deyə bilməz".**

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

# Kəlbəcərli girovlar və Elnur Hüseynzadə azad oluna bilər

## Noyabrın sonunda Tiflisdə mühüm görüş olacaq

**Azərbaycan-Ermənistan dövlət sərhədində təxribat törədən zaman saxlanılmış Ermənistanın kəşfiyyat-diversiya qrupunun üzvü Karen Kazaryanın cinayət işi üzrə məhkəmə başlayıb.**

K.Kazaryan noyabrın 7-də məhkəmə qarşısına çıxarılıb. Erməni diversantın işinə Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim İman Dadaşovun sədrliyi ilə baxılır.

Qeyd edək ki, bu il iyulun 15-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində düşmənin kəşfiyyat-diversiya qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərərkən sağ ələ keçirilən 1984-cü il təvəllüdlü Karen Kazaryana Azərbaycan Cinayət Məcəlləsinin 29,120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürməyə cəhd), 214.2.1-ci (terrorçuluq - qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədildikdə), 282.1-ci (təxribat), 276-cı (casusluq) və 318.2-ci (Azərbaycanın dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə ittiham irəli sürülüb.

K.Kazaryan barəsində məhkəmənin noyabrın sonunadək yekunlaşacağı və hökm elan ediləcəyi istisna deyil.

Belə ki, noyabrın sonunda Tiflisdə Azərbaycanın və Ermənistanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyalarının danışıqlar aparacağı bildirilir.

**Komissiyaların danışıqlar aparacağı barədə Azərbaycanlı girovların azad edilməsi istiqamətində mühüm Avropa institutlarında daim çıxışlar edən hüquq müdafiəçisi Əhməd Şahidov məlumat verib.** Onun sözlərinə görə, noyabr ayının sonlarında Tiflisdə Ermənistan və Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyalarının görüşü keçiriləcək. Azərbaycan tərəfinin müvafiq qurumlarının görüşə biləcəyini deyən hüquq müdafiəçisi azərbaycanlı girovların bu ilin sonuna qədər azadlığa buraxılacağına inandığını dedi: "Dağlıq Qarabağ münaqişəsi bölgəsində itkin düşmüş şəxslərin axtarışı, əsir-girovların azad edilməsi üzrə Beynəlxalq İşçi Qrupu oktyabr ayında Azərbaycanın Əsir və İtkin Düşmüş Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə əlaqə saxlayıb və Tbilisdə Ermənistanın müvafiq Dövlət Komissiyası ilə görüşün keçirilməsinə hazırlıq işlərinin getdiyini məlumat veriblər. Çox güman ki, girovların dəyişdirilməsi ilə bağlı danışıqlar olacaq. Bu danışıqlar keçirilsə ehtimal ki, girovların dəyişdirilməsi prosesi baş tutacaq. 90 faiz əminəm ki, bu baş tutacaq. Azərbaycan tərəfi əsir-girovların "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsini ilkin şərt olaraq, irəli sürüb. İnanıram ki, Tbilisi şəhərində baş tutacaq görüşdə əsir-girovların dəyişdirilməsi ilə bağlı razılıq əldə olunacaq və Dilqəm Əsgərov, Şahbaz Quliyev, Elnur Hüseynzadə Azərbaycana təhvil veriləcək".



Bu arada Ermənistan kütləvi informasiya vasitələrində verilmiş məlumata əsasən, həmin ölkənin müdafiə naziri vəzifəsinin icraçısı, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri David Tonoyan Azərbaycan tərəfinin əsirlərin dəyişdirilməsinə dair təklifi barədə mətbuatdan oxuduğunu və rəsmi təklif almadığını bildirib.

**Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası isə bəyan edib ki, 29 aprel 2016-cı il tarixdə Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) ünvanladığı məktubunda hazırda hər iki tərəfdə saxlanan şəxslərin dərhal azad edilməsi və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda, meyitlərin 3 gündən gec olmayaraq qaytarılması ilə bağlı saziş layihəsinin hazırlanmasını təklif edib.** BQXK bu təklifin Ermənistan tərəfinə çatdırıldığını və saziş layihəsi üzərində müvafiq iş apardığını bildirib. Bununla yanaşı, Dövlət Komissiyası Dağlıq Qarabağ münaqişəsi bölgəsində itkin düşmüş şəxslərin axtarışı, əsir-girovların azad edilməsi üzrə Beynəlxalq İşçi Qrupu (BİQ) ilə 2017-ci və 2018-ci illərdə Bakıda keçirdiyi görüşlər zamanı tərəflərdə saxlanan şəxslərin qısa müddətdə "hamının-hamıya" prinsipi ilə azad edilməsi məsələsini müzakirə edib. Bu təklif son iki ildə Ermənistana və Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər etmiş BİQ həmsədrləri-Bernhard Klazen (Almaniya), Svetlana Qannuşkina (Rusiya) və Paata Zakeriaşvili (Gürcüstan) tərəfindən Ermənistanın müvafiq qurumlarına çatdırılaraq müzakirə edilib. Son dəfə cari ilin oktyabr ayında Ermənistana və işğal olunmuş Dağlıq Qarabağa səfər edən BİQ həmsədrləri Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ilə telefon əlaqəsi saxlayaraq, bu ilin noyabr ayının sonunda Gürcüstanın Tiflis şəhərində hər iki ölkənin dövlət komissiyalarının görüşünün keçirilməsini planlaşdırdıqlarını və müzakirəyə çıxarılacaq mövzuları razılaşdırmaq istədiklərini bildiriblər. Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası müzakirəyə çıxarılacaq əsas məsələnin hazırda tərəflərdə saxlanan şəxslərin qısa müddətdə "hamının-hamıya" prinsipi ilə azad edilməsi mövzusu olacağı təqdirdə, Azərbaycan tərəfinin görüşə hazır olduğunu BİQ həmsədrlərinin diqqətinə çatdırıb.

**Əhməd Şahidov** isə hesab edir ki, David Tonoyanın açıqlaması, əslində, geçikmiş olsa da, onların girovların dəyişdirilməsi prosesinə razılığının əlaməti sayıla bilər: "Sanki Tonoyan beynəlxalq ictimaiyyətə demək istəyir ki, əvvəldən xəbərləri olsaydı, guya daha rasional davranış nümayiş etdirərdilər. Gec də olsa, Ermənistan tərəfi nəhayət ki, girovların dəyişdirilməsi prosesinə razı kimi görünür".

**Azərbaycan isə hazırda erməni diversantlar Arsen Baqdasaryan, Karen Kazaryan və Zaven Karapetyan saxlanılır.**

Kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəkili Anar Bağırov isə Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı sənədlərin Avropa İnsan Haqları Məhkəməsinə göndərildiyini açıqlayıb. Onun dediyinə görə, yaxın vaxtlarda Avropa Məhkəməsi Dilqəm Əsgərov və Şahbaz Quliyevin işinə baxacaq: "Söhbət yalnız insanların qanunsuz həbsindən getmir, onlara işgəncə də verilib və bu insanların səhhətində ciddi problem də var".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**






# Müəllimə dövlət qayğısı

Zamin HACI
zaminhaci@mail.ru

"Yanlış hesab Bağdaddan qayıdar"
*(Azərbaycan ata sözü)*

**Sakit okeanda Yeni Kaledoniya adlı ada dövlətciyi vardır, Fransanın müstəmləkəsidir. Bir-iki gün qabaq orada referendum keçirildi, ada sakinləri yekdilliklə müstəqilliyin əleyhinə səs verdilər. Kim olsa verməzdi? Müstəqil olub kaledoniyalı olunca, müstəmləkə ol, qoy fransız sənin dərdini çəksin. Doğrusu, dəqiq bilmirəm, yəqin kaledoniyalıların Parisə vizasız getmək hüquqları da vardır, təbii, getməyə qayıq tapsalar. Bəs bu Kaledoniya söhbətini niyə açdım, onu da hörmətli oxucularımız bilsinlər - bu gün bizdə rəsmi olaraq Bayraq günü bayramıdır. Həmin bu Yeni Kaledoniyanı Azərbaycanla birləşdirən ortaq cəhət isə məhz bayraqdır. Onların da bayrağı mavi, qırmızı və yaşıl olmaqla trikolordur (qoy desinlər, savadlı adamdır - üçrəngli yazmaq olmaz). Hətta rənglərin düzülmə, yerləşmə ardıcıllığı eynilə bizimki kimidir. Yalnız bir fərq var ki, Yeni Kaledoniyanın bayrağında ortada ay-ulduz yerinə qarışqa kababına oxşar nəsə bir emblem vardır. Bir az da şişə taxılmış badımcan və bibərə oxşayır. Hər halda mən bilmirəm o nədir, ümid edirəm sizə də maraqlı gəlməz. Əsas odur dünyada bir qardaş-dost məmləkət də vardır. Sözgəlişi, bizi kaledoniyalılarla birləşdirən ümumi dəyərlərdən biri dillə bağlıdır. Orda da hər gün dilin qorunması üzrə müzakirələr açılır, diktorların leksikonu tənqid edilir. Şutka. Bəlkə də heç orda televiziya yoxdur. Bəs oxşarlıq həqiqətdə nədir? Yazım, bilin: əhalisinin sayı cəmi 250 min nəfərə yaxın olan Yeni Kaledoniyada dövlətin rəsmi dilləri düz 33 dənədir! Yəni, orda da eynilə bizdəki kimi qəbilə-tayfalar arasında dil tapmaq çətindir, birtəhər fransızca yola verirlər. Bizdə uşağı rus sektoruna qoymaq moddadır, orda fransız sektoruna. Nəsə, çox başınızı ağrıtmayım, bayraq bayramınız qutlu olsun. Müstəqilliyin qədrini bilməliyik. Sovetin vaxtında bizi Maqadana sürgün edirdilər, hər yerimiz donurdu, indi isə Kürdəxanıda mədəni istirahət edirik.**

Ancaq bəzi zəhmətkeşlər üçrəngli bayrağın altında ələm-qəlləm işlər törədirlər. Deputat Yaqub müəllim başqa yoldaşlarından estafeti uğurla qəbul edərək onları tənqid eləmişdir. Deyir, bizdə saxta əlillik, zəlillik vəsiqələri alanlar var. Deyir, Qarabağda vuruşanlardan çox əlil vəsiqəsi alanımız vardır. Əhsən. Əsl tarixçidir. Bu saat tarix kitablarımızı da həmin prinsiplə qayırırlar. Misal üçün, hardansa paslı tüfəng tapılır, yazırlar bunun 5 min il yaşı var. Kimsə "Ay Zaur" verilişindən təsirlənib arvadının çənəsini qırır, bizim tarixçi alimlər o çənə sümüyünün eramızdan 150 min il qabaq Sulutəpədə yaşamış Homo Yapiyens adamına məxsus olduğunu isbat edirlər. Yaxşı deyiblər, qonaq qonağı istəməz, ev yiyəsi heç birini. Bəs indi niyə bu tarixçi-deputat dostumuz milləti bəyənmir? Əlbəttə, ağlamayana məmə, tema verməyənə pəpə yoxdur. İndi isə büdcə müzakirəsi vaxtıdır, kim yaxşı baş qarışdırsa onun gələn il üçün əppəyi qarantilənmişdir. Diqqətli müşahidəçilər (zəhlətökən politoloqların dili ilə yazsaq) yəqin bu qanunauyğunluğa fikir vermişdir: bizim deputatların aktivliyi ilə Milli Məclisdə dövlət büdcəsinin müzakirələri arasında düz mütənasib asılılıq əlaqəsi vardır. Elə ki büdcə müzakirəyə çıxır, hətta lal deputatların da dili açılır. Möcüzədir. Pulun belənçik möcüzələri çoxdur. Odur, 500 min funtun hesabına ingilislər Zamirə xanımı ev dustaqlığına buraxdılar. Yeri gəlmişkən, bizdə bəzən müəllimlər kasıbçılıqdan gileylənir, repetitorluq edir, uşaqların çantasına, valideynin cibinə baxırlar. Guya bizdə müəllimə, təhsilə dövlət qayğısı azdır. Yalançının seçkidə bülleten gizlətdiyi yeri yansın. Söhbət ondadır ki, bax həmin Zamirə xanım adi müəllimə olmuşdur. Rus dili və ədəbiyyatı üzrə. ("Yenə rus sektorunda var, nə varsa" - bəzi ağzıgöyçəkləri susdurmaq olmur). Azərbaycanlı bir müəllimə Londonun mərkəzində milyonlarla dollarlıq ev alırsa, tək bir dükanda 16 milyon funt sterlinqi qoyub çıxırsa, kim bizdə təhsilə dövlət qayğısının az olduğunu deyə bilər? Yaxşı müəllimə hər yerdə, hər zaman çörək vardır. Müəllimi el saxlayır.

Müəllim çörək yemir - bunu da biləsiniz.



# "Qəzetimizin cəmi bircə gün uğurlu dövrü olub..."

## "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu "Yeni Müsavat"ın qurulmasından 29 il sonra nələri dedi...

**Yenə aylardan noyabr. Ölkənin ən yaşlı və tirajlı qəzetlərindən olan "Yeni Müsavat"ın mövlud günüdür. "Keçən il bu vaxt..." deyib başladığımız söhbətlər bizi daha uzağa aparır bu dəfə - 29 il öncəyə. 4-cü onillikdən xırdalamağa başlamamıza cəmi bir il qalıb, əslində. Xatirələr təkrarlanır, amma uğurlar da, problemlər də artıb.**

"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arioğlu ilə söhbətdə onları bir-bir sadalamağa çalışırıq. "29 yaşlı gənc"in yaradıcısı suallara keçmədən öncə söhbətə özü körpü qoyur. Deyir, 29 il əvvəl bugünkü günlər mediaya "Yeni Müsavat" adlı bir qəzet ayaq açmağa hazırlaşırdı...

- Bu, böyük tarixdir. Artıq neçənci dəfədir ki, bizim bu tarixlə bağlı müsahibələrimiz olur. Bəzən az, bəzən çox oxuyurlar. Amma bu müsahibələr, bu təkrarlar tarix üçündür. Azərbaycanın son 30 illik media tarixi əslində "Yeni Müsavat"ın tarixidir. Sovetlər dönəmində kommunist qəzetlərinə, Leninçi sistemə alternativ qəzet qurmaq və onun adını "Yeni Müsavat" qoymaq bilirsiniz nə demək idi? Birbaşa quruluşu yıxmağa iddia etmək! Özü də bu qəzeti sən ... gizli bir təşkilat kimi qurasan... Hər şey gözümün önündədir. Həm də bəzən mənə elə gəlir ki, bunları hər kəs də bilir. Lakin düşünəndə ki, bizim hazırkı kollektivdə çalışanların yarısı bizim qəzetlə yaşıddır və ya ondan gəncdir, başa düşürəm ki, biz hardayıq və nələr etmişik.

***- Rauf bəy, budəfəki ildönümü müsahibəmizin formatını bir qədər fərqli düşünmüşük. Mən hər il öz suallarımla, oxucuları maraqlandıracaq məqamlarla bağlı sizinlə "Yeni Müsavat"ın ötən bir ilini dəyərləndirməyə çalışıram. Amma bu dəfə media, siyasət və ictimai sektorun tanınmış simalarının sualları ilə sizə müraciət edəcəyəm. Necə deyərlər, bu dəfə biz yox, onlar soruşur. Və hətta qısqanclıqla da olsa etiraf edim ki, mənim ağlıma gəlməyən bir çox suallar tanınmış oxucularımızın ağlına gəlib.***

- Mənim üçün də maraqlıdır o suallar.

***- Öncə "Yeni Müsavat"ın köşə yazarı Zamin Hacının sualı ilə başlamaq istəyirəm söhbətə. Köşə yazarımız soruşur ki, Rauf bəy "Yeni Müsavat"ın hansı dövrünü daha uğurlu hesab edir?***

- Maraqlı sualdır. 29 il bundan öncə, 10 noyabr tarixində qəzetimizin ilk sayı oxucuya çatdırıldı. Böyük bir xalq mitinqi var idi Azadlıq meydanında. Və biz az qala bir aya yaxın çəkən hazırlıq, makinada səhifələrin yığılması, onun kopyalama üsulu ilə çıxarılması, bir-birinə tikilməsindən sonra qəzetimizi o nəhəng mitinqdə payladıq. "Yeni Müsavat" Azadlıq meydanında doğuldu. Bax, bizim qəzetin ən uğurlu dövrü məhz həmin gündür! Və o gün hələ də davam edir.

***- Növbəti sual deputat Fazil Mustafanındır. Fazil bəy soruşur: "Yeni Müsavat" qəzetinin "musavat.com" saytı ilə rəqabətdə meydanının daraldığını nəzərə alaraq, qəzetin cəlbediciliyi baxımından düşüncənizdə hansısa yeniləşmə layihəsi varmı?"***

- Çap mediası elektron mediaya hər yerdə uduzur. Bunun qarşısını almaq qeyri-mümkündür. Bütün dünyada bu proses baş verməkdədir. Amma bu, əslində yaxşı haldır. Elə bir yenilik gəlir ki, bu, artıq bir nömrəli amilə çevrilib. Paralel ekran əsri başlayıb. Artıq çoxları öz evindəki əsas ekranı - televizoru da az seyr edir. Yeni media və paralel ekran dediyimiz ağıllı telefonlar nəinki print medianı, televizorları, kompüterləri də köhnəldib. Hər kəs əlindəki o telefonla yatır, onunla qalxır və gözünü açanda ilk baxdığı da telefon olur. İndi biz də çalışırıq ki, çap versiyadakı qəzeti yox, alternativ ekranı hədəf götürərək, işimizi ona doğru daha da uyğunlaşdıraq. İndiki zaman da, gələcəkdə də, qazanc da, uğur da, hamısı ondadır. Bu gün qəzetimizin 7128-ci sayı çap olunur. Bu rəqəm və print media bir yayın orqanı olaraq bizim soy kökümüzdə dayanır. Biz işimizi, sistemimizi, fəaliyyətimizi, hər şeyimizi bunun üzərində qurmuşuq. Belə şəraitdə məhz çap versiyasındakı qəzeti gücləndirmək qeyri-mümkündür. Amma onu qorumağın yollarını düşünürük. Fazil bəyin nəzərinə çatdırım ki, qəzet çapı rentabelli deyil artıq. Dünyada bir çox nəhəng qəzetlər özlərinin çap versiyasını bağladılar, elektron medianı gücləndirdilər. Biz isə öz qəzetimizi qoruya bildiyimiz qədər qoruyacağıq. Üstəlik, indiki dövrün şərtlərinə uyğun şəkildə onu maraqlı etməyə çalışırıq ki, oxucu bu qəzetdən yorulmasın, xəbər və yazılarda boyatlıq hiss etməsin.

***- Tanınmış telejurnalist Qulu Məhərrəmlinin sizə iki sualı var. Birinci sualı belədir: "Rauf bəy nə vaxtsa "Yeni Müsavat"ın təxminən 2000-ci illərə qədərki dövrdə tutduğu tənqidi mövqeyə qayıdışını mümkün hesab edirmi?"***

- Biz bir neçə iqtidar görmüşük, bir neçə formasiya devirib yola salmışıq. 2000-ci illər və ondan əvvəlki dövrdə "Yeni Müsavat" qəzeti bir düşərgə qəzeti idi. Hakimiyyətə gəlmək istəyən bir komandaya oynayır, onun üçün çalışır, ona işləyirdi. Bu gün biz özümüzə işləyirik. Bizə necə sərf eləsə, o cür də davranacağıq. Amma əsasən çalışırıq ki, mətbu mandatdan kənara çıxmayaq. Bir də yenidən siyasətçi mandatına qayıtmaq fikrim, niyyətim yoxdur mənim. İndi mən bir media meneceri, biznes strukturunun başında dayanmışam. "Yeni Müsavat"da təmsil olunan heç kim də hakimiyyətə gəlmək istəmir ki, bütün maraqları o bir adamın maraqlarına tabe etdirək.

***- Qulu müəllimin ikinci sualı isə belədir: "İndi ölkədə rus dilinə yeni və şübhəli maraq artmağa başlayıb. Qəzetin rus dilində də dərc olunmaq ehtimalına necə baxırsınız?"***

- Rus dilinin azərbaycanlılara açdığı böyük imkanlar, böyük auditoriya var. Azərbaycan həm türkdilli, həm də rusdilli arealda yerləşir. Bu bizə böyük imkanlar yaradır. Ona görə də hazırda ölkəmizdə həm türk dilinə, həm də rus dilinə maraq paralel olaraq artmaqdadır. Bundan narahat deyiləm. 200 il ruslarla bərabər olduq. Çox şükür, Cənubi Azərbaycandakı soydaşlarımıza nisbətən, daha milli qaldıq, daha da inkişaf etdik. Bu dalğada da belə olacaq, əminəm. Qəzetin rus versiyasına gəlincə, 2002-2003-cü illərdə bizim qəzet rus dilində də yayılırdı. İndi bizim qəzetin saytının - musavat.com-un rus versiyası var. Bu versiya o qədər də çox izlənmir. Amma bizim media qrupuna aid olan minval.az saytı rus dilində yayımlanır.

***- Növbəti sual "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncaydan gəlir: "Rauf Arifoğlu böyük ölkədə yaşasaydı, həyatını necə qurardı?"***

- Ölkəm mahiyyətcə də, tarixi ərazi baxımdan da böyük ölkədir. Azərbaycan təxminən 50 milyonluq insan birliyi deməkdir. Həyatımı ona görə düzənləyib, o istiqamətə həsr etmişəm. Ölkəmin mahiyyəti və tarixi coğrafiyası qədər real coğrafiyası olsun deyə, həyatımı bu işə adamış insanlardan biriyəm.

***- Xural.com saytının baş redaktoru Əvəz Zeynallının üç sualı var. Birincidən başlayaq: "Özünüzü qarşı düşərgədə - illərdir vuruşduğunuz, savaşdığınız səngərin o biri tərəfində necə hiss edirsiniz? Rahatsınızmı? Yoxsa qəlbinizin dərinliklərində hər gün sizi narahat edən nəsə olur?"***

- Mən ümumiyyətlə, xarakter etibarilə narahat adamam. Yapım budur. Yəqin ki, ölənə kimi bu cür davam edəcək mənim narahat tipim. Səngər məsələsinə gəlincə, biz zamanında qəzet olaraq siyasət səngərində olmuşuq. Öz yerimizdə olmamışıq. Biz hakimiyyəti yıxıb onun yerinə keçmək istəyən bir düşərgənin, konkret olaraq, Müsavat Partiyasının maraqları çərçivəsində işimizi, kollektivimizi qurmuşduq. Onun seçimi ilə düşmən, dost bəlirləmişik, onun uğrunda həbsxanalarda yatmışıq, iqtidarlarla pis olmuşuq... Amma hətta siyasətin öz prinsipləri ilə yanaşanda görürük ki, siyasətin əks tərəfləri belə müəyyən zamandan sonra iqtidar, ya da müxalifət ortağı olurlar, vahid komanda qururlar. Dünən savaş vardıysa, səngər vardıysa, bu gün barış və bərabərlik var. Siyasətçi bir dini təriqət təmsilçisi deyil. Onun yeganə silahı dili, zəkası və manevrləridir. Bu baxımdan "əvvəl ordaydın, indi niyə burdasan" sualını siyasətçiyə verməyin özü qeyri-siyasi, düzgün olmayan bir yanaşmadır. Narahat vəziyyətimi saxlamaqla yanaşı, dərsliklərə düşə biləcək uğurlu manevrlərimdən sonra heç bir kompleks hiss etmirəm. Mənim bir zamanlar müdafiə etdiyim düşərgə darmadağın oldu. Onun qalıqları virtual aləmə səpələnib və illərdir ki, orada çırpınır. İndiki prezidentə alternativ olaraq müdafiə etdiyim və uğrunda iki dəfə həbs yatdığım lider 2014-cü ildə iddialardan çəkildi. Siyasətin mərkəzindən və üzvü olduğum partiyanın başından getdi. Belə halda mən nə etməli idim? İndi mənim aksessuarlarım və arxa fonum "Yeni Müsavat" qəzetidir, o zaman Müsavat Partiyası idi. İndi isə o partiya böyük siyasi iddialarda yoxdur, onu bitiriblər, mən də onun üzvü deyiləm.

***- Əvəz bəyin növbəti sualı: "Sizi əhatə edən mətbu simaların demək olar ki, hamısı müstəqil mətbuatın amansız düşmənləri, söz qatilləridir. Onlarla bir yerdə artıq siz də bu sırada yer alır, müstəqil medianın - hətta özünüzün sıradan çıxarılmanıza seyrçi yanaşırsınız? Niyə?! Buna məcburmu qaldınız? Niyə imtina etdiniz?!"***

- Mən yanında oturduğum və hazırda Mətbuat Şurasında təmsil olunduğum adamları mətbuat və söz qatili hesab etmirəm. Onların arasında vaxtilə çəkişdiyim insanlar da var, qol-qola dayanaraq bu hakimiyyətə qarşı yürüş etdiyim, döyüldüyüm insanlar da. Məsələn, Mətbuat Şurasının sədri Əflatun Amaşovla, onun İdarə Heyətinin üzvü Azər Həsrətlə, daha başqaları ilə də 2001-ci ilin noyabrın 12-də "Sahil" bağında küçə yürüşü etmişik. Bizi əzişdirib, polis maşınına basıblar. Bu, çoxmərhələli böyük bir prosesdir. Lakin maraqlı olan budur ki, o mərhələlərin hamısında Əvəz Zeynallı bizim haqqımızda buna bənzər şeylər deyirdi. Mən bu rejimə ən kəskin müxalifətdə olduğum dövrdə belə məni bəyənməyib, haqqımda kəskin ifadələr yazıb, ittihamlar səsləndirib. İndi hələ çox yumşaq və maraqlı suallar verir. Heç nədən imtina etdiyim yoxdur. Bir fəlsəfi məktəbin, dini icmanın təmsilçisi deyiləm. Böyük bir siyasi yol keçmiş qəzet meneceriyəm. Konkret olaraq maraqlarım var. O maraqlar 2015-ci ilə qədər Müsavat Pariyasının maraqları ilə ötüşürdü. Amma mən Müsavat Partiyasından ayrılandan sonra "Yeni Müsavat" Media Qrupunun maraqları ilə ötüşür. Və o maraqlar istiqamətində manevrlər edirəm. Manevrlər etdikcə fərqli-fərqli adamlar fərqli münasibətlər sərgiləyirlər. Bu da mənim uğurumdur. Mən davam edirəm, öndəyəm, uğur qazanıram, yaxud uğursuzluğa düçar oluram - hər nə edirəmsə, kimlərinsə, hətta Əvəz Zeynallı kimi böyük media təmsilçilərinin belə daim diqqət mərkəzində olmaq uğur nümunəsidir.

***- Əvəz bəyin, üçüncü və sonuncu sualı belədir: "Günlərin bir günündə sizə bir zəng gələ və telefonda mətbuat üzrə hakimiyyət kuratoru belə deyə bilər: "Artıq cənab prezidentə Rauf Arifoğlu və "Yeni Müsavat" media qrupu lazım deyil, bağlayın..." Nə edəcəksiniz?!"***

- Mən indiki prezidenti müxalifət düşərgəsindəki dostlarımdan çox-çox ağıllı şəxs hesab edirəm. Onlar bir günün içərisində mənimlə münasibətləri pozdular. "Yeni Müsavat" kimi tarixi olan bir media qurumu ilə münasibətləri korlamaq heç bir siyasətçinin ağıllı davranışının nümunəsi deyil. Prezident isə tam əksinə, bu və digər media quruluşları ilə münasibət qurdu, onlara önəm verdi, tərəfinə çəkməyi bacardı. Mən bilirəm ki, indi müxalifətdəki əski dostlarım peşmandırlar. Onlara elə gəlirdi ki, mənimlə münasibəti kəsən kimi, mən də, qəzet də məhv olacağıq, batacağıq. Lakin tam tərsi oldu və biz daha da gücləndik. "Yeni Müsavat"ın lazımlılığını isə çox şükür ki, "Yeni Müsavat" kollektivi və Rauf Arifoğlu müəyyən edir. Həm də qarşıdakı və bu sözü deyə biləcək adamları da ağıllı hesab etdiyim üçün deyirəm: Belə bir zəng və situasiya ola bilməz. Olsa belə, bu qəzet bağlanmaz. Hakimiyyət öncələrdə məni iki dəfə həbs edib. Bu qəzet çox şükürlər olsun ki, bağlanmayıb. Mən nə zamansa yorulsam, çox qocalsam, özüm istəsəm, bu qəzeti qapada və özüm də mətbu fəaliyyətdən çəkilə bilərəm. Allah bizlərə o qədər uzun ömür versin ki, həyatımızın bir neçə ilini rahat, dinc şəkildə təqaüddə keçirək. Amma niyə bağlayaq ki? "Yeni Müsavat" qəzeti prezident İlham Əliyevə də, müxalifətçi Əli Kərimliyə də, Arif Hacılıya da, Əvəz Zeynallıya da, yeni nəsillərə də çox lazım olacaq.

***- Daha bir sual isə digər həmkarınızdan, "Bizim Yol" qəzetinin baş redaktoru Bahəddin Həzidən gəlib: "Öncə təbrik edirəm. Rauf bəydən soruşun ki, fotosərgisini nə vaxt açır? İzlədiyim qədər xeyli maraqlı foto çəkib".***

- Bizim Bahəddin bəylə bu yaxılnlarda Tiflis səfərimiz oldu. Orada da çoxlu şəkillər çəkdik. Bahəddin bəy gözəl yol yoldaşı imiş və üstəlik, çəkdiklərimi də bəyənirdi. Fotosərgi yaxşı ideyadır. Niyə də olmasın? Son illərdə 20 minə yaxın foto çəkmişəm. Dünyanın ən tanınmış insanları ilə selfilərim, yaxud da görüşərkən çəkilən şəkillərim var. Mən o sərgini təşkil edim, Bahəddin bəyi də ora dəvət edim.

***- "Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllının sualına keçək. Həmkarımız soruşur: "Rauf bəy, media qrupunuzun tərkibində radio və televiziyanın yaradılması planı varmı?"***

- Bu plan var. Radio haqqında düşünmürəm. Amma alternativ ekrana, telefon vasitəsilə həyata keçirdiyimiz layihələrə elə zərurət yaranıb ki, biz mütləq mükəmməl bir studiya qurmalıyıq.

***- "Trend" İnformasiya Agentliyinin redaktoru Arzu Nağıyevin sualı isə belədir: "Yeni Müsavat"ın və kollektivinizin 29 yaşını təbrik edirəm,uğurlar arzulayıram, əziyyətinizi halal edin! Zənnimcə, bu 29 ildə bəlkə də 100 illik bir ömür yaşamısınız. Bundan sonra sizi düşündürən ən mühüm, qarşınıza həll edilməsi labüd olan hansı əsas üç məsələni qoymusunuz?"***

- Birincisi, "Yeni Müsavat"ı yaşatmaq və imkan olsa böyütməkdir. İkincisi, şəxsi planda övladlarımın Azərbaycan üçün, millətim üçün uğurlu nəticələrə gəlib çıxmasıdır. Üçüncüsü, mən Vətənim, ölkəm üçün zamanında qələmlə yanaşı, silah da işlətmiş adamam. Arzu edirəm ki, övladlarım o mərhələni yaşamasın. İndiki nəsil olaraq, Qarabağın qayıtmasını həll edək və yaşayaq. İstərdim ki, mən bu mərhələni görüm, yaşayım. Və bu müqəddəs işə yaşımla əlaqədar silahla olmasa da, qələmlə, ideoloji düşərgədə əlimdən gələn dəstəyi verim.

***- Aznews.az saytının redaktoru Taleh Şahsuvarlıdan isə fərqli bir sual gəlib: "Təxminən 18 il il bundan öncə Rauf Arifoğlu Türkiyədə məşhur siyasi lider Bülent Ecevitlə görüşmüşdü. Həmin görüşdə Ecevit Azərbaycanın iç siyasətindəki fiqurlarla bağlı öz mülahizələrini söyləmişdi. Səfərdən qayıdandan sonra Rauf bəy öz yazısında bu barədə məlumat vermiş, ancaq təfsilatı açıqlamamışdı. Mənə maraqlıdır, Ecevit kimin haqqında nə demişdi?"***

- 2001-ci il idi və Bülent Ecevit baş nazir idi. O zaman üçün biz Türkiyədə idik, İsa Qəmbərin səfərini, onun Ecevitlə görüşünü təşkil etmişdik. Təşkilatçılardan və görüşdə iştirak edənlərdən biri də mən idim. O barədə yazdığım doğrudur. Təfsilatı da yazmışdım. Oturan kimi hər kəsi bir-bir soruşdu. Əli Kərimlini də soruşdu. Onun haqqında da xoşagəlməyən ifadə işlətdi, təkrar etmək istəmirəm.

(davamı səhifə 10-da)

























YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018



## Bu gün Dövlət Bayrağı Günüdür

### 100 yaşlı, üçrəngli, ay-ulduzlu bayrağımız

**Bu gün-noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günüdür. Ölkəmizin üçrəngli bayrağı dövlət rəmzi olaraq Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 9 noyabr tarixli iclasında qəbul olunub. 1920-ci ilin 28 aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut edib və Azərbaycan üçrəngli bayrağı da dəyişdirilərək qırmızı sovet bayrağı ilə əvəzlənib.**

**Tarixçi-professor Nəsiman Yaqublu**nun araşdırmalarında bildirilir ki, Xalq Cümhuriyyəti 1918-ci ildə mayın 28-də yarandıqdan sonra onun əsas rəmzi olan bayraq haqqında həmin ilin iyun ayının 21-də müvafiq qərar verilib. Həmin qərarda deyilirdi ki, üstündə qırmızı fonda ağ səkkizguşəli ulduz və aypara təsviri olan qumaş Azərbaycanın bayrağı kimi təsdiq edilsin. Həmin dövrdə bayrağımız Osmanlı Türkiyəsinin bayrağı ilə eynilik təşkil edirdi. Fərq yalnız onda idi ki, Osmanlı Türkiyəsinin bayrağındakı hilal ayın qarşısındakı ulduz beş guşədən, Azərbaycan Cümhuriyyətinin bayrağında isə səkkiz guşədən ibarət idi.

İlk bayrağımız haqqında verilən qərar da (yəni eynən Osmanlı Türkiyəsində olduğu kimi) bir çox səbəblərlə izah edilir. Biz bununla türk xalqı olaraq böyük bir mədəniyyət sisteminə əsaslandığımızı sübut edirdik.

1918-ci ilin noyabrın 9-da qırmızı rəngli bayrağın yerinə üçrəngli bayrağın yaradılması haqqında Rəsulzadənin və onun başçılıq etdiyi Azərbaycan Milli Şurasının təklifi ilə qərar qəbul edildi. Bayraqdakı rənglərin təsviri və düzülüşü isə Rəsulzadənin "Açıq söz" qəzetindəki məqaləsindən götürüldü. Bu dəyərləri özündə birləşdirən (türkləşmək, islamlaşmaq, avropalaşmaq) üçlük düsturunu böyük bir şüara çevirən türk dünyasının böyük mütəfəkkiri, Rusiya və Türkiyə universitetlərində təhsil almış Əli bəy Hüseynzadədir.

Həmin üçrəngli dövlət bayrağımız ilk dəfə olaraq 1918-ci ilin noyabrın 17-də Bakıda Dəniz Vağzalında ingilis generalı Tomsonun qarşılanma mərasimində qaldırılıb.

1920-ci ilin 27 aprelindən-bolşevik Rusiyasının Xalq Cümhuriyyətini süqut etdirdiyi gündən üçrəngli bayrağımız qadağan edildi. Azərbaycanın üçrəngli bayrağı Sovet İttifaqı dövründə gizli olaraq insanlarımız tərəfindən yaşadılıb, qorunub və saxlanılıb.

1920-1930-cu illərdə,1950-ci illərdə (Qız Qalasında C.Hilaloğlu,Ç.Abdullayevin fədakarlıqlar edib bayrağımızı dağlandırması), sonradan 1980-ci illərdə bu bayrağı sevib yaşadanlar oldu. 1988-ci ildə başlayan xalq hərəkatı dövründə ilk dəfə olaraq bayrağımızı tikib, hazırlayıb və meydana gətirilməsini təmin edən insanlar-Şahverdiyeva Sura, Şahverdiyeva Arzu (Sura xanımın qızı) və Yaşar Türkazər olub. Məhz üçrəngli bayrağımız 1980-ci illərin sonunda müstəqillik uğrunda mübarizə başlayandan sonra xalqımızın mübarizə simvoluna çevrildi. 1990-cı ilin 17 noyabrında Naxçıvan Ali Məclisinin deputatı Heydər Əliyevin təklifi ilə Ali Məclisi üçrəngli bayrağımızın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqda qərar verib. 1991-ci il fevralın 5-də isə Azərbaycan Ali Sovetinin qərarı ilə üçrəngli və ay-ulduzlu bayraq Azərbaycanın dövlət bayrağı elan edildi.

**Azərbaycan prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamla 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur.**

❑ **Etìbar SEYİDAĞA,
"Yenì Müsavat"**

# "Qəzetimizin cəmi bircə gün uğurlu dövrü olub..."

## "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu "Yeni Müsavat"ın qurulmasından 29 il sonra nələri dedi...






(əvvəli səhifə 8 və 9-da)

**- Növbəti suallar sabiq deputat Gülər Əhmədovadandır. İki sualı var Gülər xanımın. Öncə soruşur ki, "Azərbaycan kimi bir ölkədə neçə qəzetin olması kifayətdir? Məsələn, Almaniyada 4 qəzet var". İkinci sualı isə belədir: "Azərbaycan mətbuatı regionda hansısa böyük dövlətin informasiya təsirinə düşürmü? Analitika yazan jurnalistlər nədən faktiki yoxdur? Sizə elə gəlmirmi ki, buna səbəb baş redaktorların xəbər yazan jurnalistlə analitika yazan jurnalistin qonorarı arasında fərq qoya bilməməsidir".**

- Birinci suala cavab verim. Artıq qəzet anlayışı sayt anlayışına paraleldir. Onu müəyyən etmək, təsnifləndirmək qeyri-mümkündür. Azərbaycanda qəzetlərin sayı çoxdur. KİVDF-dən 33 qəzet qrant alır. Almayanlar da var, yəqin ki... KİVDF olmasa, Azərbaycanda çap mediası - klassik qəzet də qalmayacaq. Vəziyyət o qədər pisdir ki, yəqin KİVDF-nin dəstəyi kəsilsə, bəlkə də ortada ancaq "Yeni Müsavat" qalacaq.

İkinci suala keçək. Azərbaycan efiri çox ciddi təsirlər altındadır. Çünki özümüzün keyfiyyətli və bu coğrafiyanı əhatə edəcək yayın orqanlarımız zəifdir. Bu baxımdan efir əsasən Rusiyanın, Türkiyənin televiziyalarının basqısı altındadır. Çünki özümüz onlara bərabər bir şeylər qura bilmirik. Bunun qarşısını almağın tək yolu efirimizi gücləndirmək, televiziya kanallarını keyfiyyətli hala gətirməkdir. İndiki halda mətbu mühitdən çox narazıyam: çərçivələr var və onlar çox kiçikdir, istədiyimizi yazırıq, lakin sonradan onlara görə cəzalandırılma riskini yaşayırıq.

O ki qaldı analitika yazan jurnalistlərin az olmasına, bu müşahidə dəqiqdir. O da maddi problemlərlə bağlıdır. Biz ancaq çox yazan jurnalistə çox maaş verə bilirik.

**- Daha bir həmkarınız, "Gündəlik Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı sizə üç sual ünvanlayıb. Birinci sualı belədir: "Rauf Arifoğlu Azərbaycan mediasında "Yeni Müsavat"ın yerini, rolunu necə görür?"**

- Aynur xanım əslində bu mövzuya özü bir yazı həsr eləsə, çox minnətdar olardım. Vaxtilə bizdə işləmiş, bizə əmək vermiş, bizim brend imzalardan biri olan Aynur Camalqızının qələmindən bir baxış yaxşı olardı. Mənim bunu cavablandırmam doğru olmazdı.

**- Keçək Aynur Camalqızının ikinci sualına: "Mənim fikrimcə, Azərbaycan media məkanında bir-birinə rəqib media quruluşları olmamalıdır. Çünki hamımız bacardığımız qədər eyni məqsəd, eyni amal üçün çalışırıq. O baxımdan düşünürəm ki, sizə rəqiblər yox, dostlar haqda sual verim: Azərbaycan mediasında kimi və ya kimləri özünüzə dost, yoldaş hesab edirsiniz?"**

- Mən yayın yapan hər media quruluşunu rəqib hesab edirəm. Amma heç birinə qarşı pislik, əzicilik etməmək də mənim prinsiplərimə daxildir. Mətbuat Şurası İdarə Heyətinin üzvlərinin əksəriyyəti ilə xeyli zamandır ki, dostuq. Ondan kənarda olan media nümayəndələrinin də prinsipial məqamlarda əlini buraxmamışıq. Aynur xanım çox maraqlanırsa, onun, Vüsalə Mahirqınızın, Əflatun Amaşovun, Elçin Mirzəbəylinin, digər həmkarlarımın adını dostlarım sırasında fəxrlə çəkirəm.

**- Aynur xanımın son sualı isə belədir: "Sizi gənclik illərindən tanıyanların uzun illər sizinlə çalışanların fikri belədir ki, Rauf Arifoğlu çox dəyişib. Sözün açığı, sizi köhnədən tanıyanlardan biri kimi bu, mənim çox xoşuma gəlir. Ağır, zəhmli, əsəbi, sərt reaksiyalı Rauf Ariofoğlu pozitiv, mehriban, sülhpərvər, hətta zarafatcıl bir dosta, həmkara çevrilib. Bunu nə ilə əlaqələndirək? Yaşmı öz işini görür, illərmi, zamanmı təsir edir?"**

- Təbii, təkcə yaş məsələsi deyil. Bir zamanlar biz çox sərt iş rejimində, ağır şərtlər altında hakimiyyətlə kəskin mübarizə aparan media quruluşu, Müsavat Partiyasının bir şöbəsi kimi idik. Müxalifətin hakimiyyətə qarşı informasiya müharibəsinin başında demək olar ki, mən dayanırdım və bu cür vəziyyət mobilizasiya tələb edirdi. İndi elə bir tələb, mühit və mandat yoxdur. Özümüzük. Media mandatı ilə nisbətən rahatıq. Bəlkə yaşın da təsiri olmamış deyil.

**- İctimai Televiziyanın redaktoru Anar Yusifoğlunun da üç sualı var, Rauf bəy. Anar bəy öncə soruşur ki, "29 il az müddət deyil. Rauf bəy bu illərə nəzər salanda peşəkar jurnalist kimi hansı səhvini etiraf edərdi?"**

- (gülür)29 ilin içində səhv axtarmaq ot tayasının içində iynə axtarmaq kimi bir şeydir.

**- İkinci sual belədir: "Hər kəs sizin peşəkar olduğunuzu etiraf edir. Sizinlə eyni masada neçə peşəkar oturur və bu, kompleks yaratmır ki?"**

- Qəbul edirəm ki, jurnalistikada lider olan bəzi fiqurlar az yazan, ya da heç yazmayan simalardır. Amma inanın ki, onların missiyası yazmaq olsaydı, onu hamıdan yüksək səviyyədə edərdilər. Ona görə də elə peşəkar mühitin içindəyik. Özüm haqqımda fikirlərim isə "Rauf Arifoğlu mediada peşəkardır" ifadəsindən daha yüksəkdir.

**- Keçək Anar bəyin sonuncu sualına: "Baş redaktorların məmurlaşmasının mediaya vurduğu ziyan sizi narahat edirmi?"**

- Bu, bir mərhələdir. 29 ildir yol gəlirik. Bu prosesdə bəzi məmurlaşmış baş redaktorlar var ki, onlara səbirlə, dözümlə yanaşıram, kostyumlu-qalstuklu görüntüləri məni o qədər də narahat etmir. Bilirəm və qəbul edirəm ki, uzun, incə yolun bu hissəsindəyik.

**- Rauf bəy, bəzi dostlar isə sizə sual verməK əvəzinə, təbrik etməyə üstünlük veriblər. Onlardan biri də eks baş nazir Pənah Hüseyndir. Pənah bəy deyir ki, "Yeni Müsavat"ı və Rauf bəyi təbrik edirəm. Rauf bəylə şəxsi münasibətlərimiz o qədər fərqli müstəvidədir ki, ona publik şəkildə sual verməyi düzgün hesab etmirəm".**

- Pənah bəy çox ağıllı və dürüst adamdır. Kaş Müsavat rəhbərliyi də onun ağılda olaydı. Pənah bəy indiki mərhələdə qəzetin fəaliyyətindən razı deyil. O istəyir ki, qəzet əskidə olduğu kimi, onun düşündüyü kimi olsun. Amma belə olmayanda da haqq-salamı kəsmir. Şəxsi münasibətlərin, dostluğun, bərabər kəsdiyi çörəyin üstündən xətt çəkmir.

**- Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə deyir: "Çox gözəl qəzetdir. Ən çətin günlərimizdə də yanımızda olub. Bəzən insanlar deyir ki, "Yeni Müsavat"da senzura var. Amma mən bu senzuranı heç vaxt görməmişəm, hiss etməmişəm. Qəzetə ancaq xeyir-dua verə bilərəm. "Yeni Müsavat"ı o qədər çox sevirik ki, sual verə bilmərik. Korrektorundan tutmuş, baş redaktoruna qədər hamısı bizim sevimlimizdir".**

- Çox sağ olsun, biz də onu sevirik. Novella xanım ən çətin anlarımızda yanımızda olub. Hətta Bayıl həbsxanasında, ölüm korpusunda belə məni ziyarət edib.

**- Daha bir hüquq müdafiəçisi Səidə Qocamanlı isə bunları deyir: "Yeni Müsavat" bizim gözümüzün qabağında böyüdü. Orada neçə-neçə nəsil jurnalistlər yetişdi, təcrübə topladı. İndi keçmiş "Yeni Müsavat"çıların sədaları hər yerdən gəlir. İş yerləri harada olsa, qələmlərindən "Yeni Müsavat"ın nəfəsini duyuram. Bu qəzetin daimi başqanı Rauf bəyə böyük minnətdarlıq edirəm ki, media cameyəsinə və biz oxuculara "Yeni Müsavat"ı bəxş etdi".**

- Təşəkkür edirəm Səidə xanıma. Novella xanım kimi, o da hər zaman bizim qoruyucu mələyimiz olub.

**- Keçən il bu vaxt sizinlə "Yeni Müsavat"ın 28 yaşı münasibətilə müsahibə alanda demişdiz ki, qəzetimizlə bağlı ən böyük arzum gələn il bu vaxt sizinlə bu mövzuda söhbət etməkdir. DeməK ki, arzulardan biri baş tutub.**

- (gülərək) İcazə verin, elə gələn illə bağlı arzumu da indidən deyim. Gələn il üçün ən böyük uğurumuz o olacaq ki, "Yeni Müsavat"ı 30 yaşına çatdıraq və öz fəaliyyətimizi davam etdirə bilək. Azərbaycan mətbuatında mühit arzuedilən səviyyədə deyil. Arzu edirəm ki, gələn il bu zaman bizim elə bir imkanlarımız olsun ki, "Yeni Müsavat" Media Qrupuna "Musavat TV"ni, yaxud "Minval TV-ni" əlavə edə bilək. Orda da sözümüzü heç bir özünüsenzurasız, qorxmadan deyə bilək.

❑ **Sevìnc TELMANQIZI
"Yenì Müsavat"**









Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Bakının İrəvana seçki fürsəti - işğalçının kəmfürsətliyi

## Azərbaycan düşmən ölkə daxilindəki proseslərə dözümlü yanaşırkən İrəvan sui-istifadəyə meyllənir; politoloq: "İşğal altındakı ərazilərdə başlanan təlimlər Düşənbə anlaşmasının əhəmiyyətini heç edir..."

**Azərbaycan işğalçı Ermənistana sülhə gəlmək üçün daha bir şans verib. Rəsmi Bakı Qarabağ cəbhəsində atəşkəsi saxlamaqla düşmən ölkədə növbədənkənar parlament seçkilərin baş tutmasına imkan yaradıb. Azərbaycan rəhbərliyi ümid edir ki, seçkilərdən sonra Ermənistanın yeni hakimiyyəti seçki bəhanəsini də kənara qoyub Dağlıq Qarabağ məsələsində realist, konstruktiv mövqe tutmağa köklənəcək. Son olaraq, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bunu mediaya açıqlamasında bəyan edib.**




Bakı həmçinin ümid ifadə edib ki, İrəvan separatçı rejimi birbaşa danışıqlara qoşmaq kimi əsassız və perspektivsiz cəhdlərdən əl çəkəcək. Əks halda, müharibəni önləmək mümkün olmayacaq. Bunu da rəsmi Bakı artıq İrəvanın diqqətinə çatdırıb.

*****

Bir sözlə, seçkilərdən sonra erməni rəhbər Nikol Paşinyan problemdən yaxasını kənara çəkə bilməyəcək. Çünki Bakının atəşkəsə sadiqliyi heç də işğal rejimi ilə əbədi barışmaq anlamına gəlmir. Atəşkəs məqsəd, hədəf ola bilməz. Bu, yalnız böyük sülh yolunda vasitədir. Əfsus ki, 24 ildən çoxdur bu vasitə nizamlama prosesində hansısa ciddi, müsbət dönüşə gətirməyib. Səbəb də işğalçı tərəfin öz gizli-açıq himayədarlarına arxalanaraq, Dağlıq Qarabağ məsələsinə beynəlxalq hüquqa zidd, maksimalist mövqe tutmasıdır. Odur ki, Azərbaycan diplomatiyasının bir işi də beynəlxalq birliyin diqqətini işğalçının bu destruktiv davranışına yönəltməkdir.

**Bu günlərdə Bakıda səfərdə olan Avropa Birliyinin (AB) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşlərdə də müzakirələrin əsas motivi bu olub.** Azərbaycan prezidenti İlham Əliyevlə görüşdə Qarabağ məsələsi də diqqətdə saxlanılıb. Bir daha ölkəmizin ədalətli mövqeyi Avropa rəsmilərinin nəzərinə çatdırılıb.

Nümayəndə heyəti Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla da görüşüb. Nazirlikdən musavat.com-a verilən məlumata görə, cəbhə xəttindəki hazırkı vəziyyətə dair fikir mübadiləsinin aparıldığı görüşdə general-polkovnik Z.Həsənov beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb.

**Nazir vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə əsas maneədir.** Münaqişənin tezliklə həlli üçün Ermənistan beynəlxalq hüququn normalarına və prinsiplərinə əməl edərək ordusunun bölmələrini torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarmalıdır.

T.Klaar da öz növbəsində, Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edərək bildirib ki, Avropa İttifaqı bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

*****

**Lakin Ermənistanın baş nazir əvəzi Nikol Paşinyanın bu günlərdə yenidən işğal altındakı Dağlıq Qarabağa gedərək, orada müşavirə keçirməsi, səngərdə işğalçı ordunun əsgərləri və Ermənistanın güc strukturları rəhbərləri ilə selfi çəkərək, şəklin altından "Bu - bizik, Ermənistan" yazması onu göstərir ki, rəsmi İrəvan təxribatlarını davam etdirir və sülh yoluna gəlməkdən hələ uzaqdır.** Bakının verdiyi seçki fürsətindən də belə görünür ki, qarşı tərəf kəmfürsətliklə istifadə edir. Bunun daha bir bariz nümunəsi Paşinyan Qarabağı tərk edən kimi - noyabrın 6-da işğal altındakı ərazilərimizdə 4 günlük hərbi təlimlərin başlanmasıdır.

"Erməni tərəfinin bu təlimləri keçirməsi onu deməyə əsas verir ki, Düşənbədə atəşkəs rejiminə əməl edilməsi ilə bağlı əldə edilmiş razılaşma öz qüvvəsini itirir". Bu sözləri axar.az-a Qarabağda separatçı hərbi birləşmələrin hərbi-taktiki təlimlərə başlamasına münasibət bildirən sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. O vurğulayıb ki, erməni tərəfinin hərbi təlimləri davam etdirməsi onların müharibəyə hazırlaşması anlamına gəlir.

"Təlimin məqsədləri haqqında müxtəlif ibarələr işlədilməsinə baxmayaraq, görünən odur ki, onlar müdafiə müharibəsinə hazırlaşır. Bu da onu deməyə əsas verir ki, ermənilər Azərbaycan Ordusunun gücünü, qüvvətini yaxşı bilir. Ona görə də Dağlıq Qarabağı, işğal etdikləri əraziləri müdafiə etmək məqsədi ilə bu təlimi keçirirlər. Keçirilən bu təlimlər Düşənbə razılaşmasının ruhuna ziddir. Erməni tərəfi bu razılaşmanı əslində çoxdan pozub. Amma onların hərbi təlimlərə başlaması artıq Düşənbə razılaşmasının öz əhəmiyyətini itirməsi anlamına gəlir", - deyə politoloq qeyd edib.

**Sabiq dövlət müşaviri vurğulayıb ki, erməni tərəfi hər zamankı ritorikasını yenə təkrarlayır: "Onların yeni baş naziri Nikol Paşinyan atəşkəs rejiminin qorunması ilə bağlı Azərbaycan tərəfinə yalvarırdı.** Amma görünən odur ki, o öz bildiyindən də əl çəkmir".

**Politoloqa görə, cəbhədə vəziyyət Düşənbə görüşünə qədər olan vəziyyətə qayıdacaq: "Azərbaycan tərəfi də yəqin ki, bunları nəzərə alacaq və qarşı tərəfin hazırlığını pozan, nəticələrini aradan qaldırmaq istiqamətində döyüş hazırlığı təlimləri keçirəcək.** Ola bilsin ki, Azərbaycan tərəfi payız-qış mövsümü ərəfəsində yeni, daha irimiqyaslı təlimlərə start versin. Biz heç vaxt erməni ordusunun üstünlük qazanmasına imkan verməyəcəyik. Bunun üçün ölkəmizin hər cür resursları var. Ordumuz onsuz da yüksək səviyyədə təlimlər keçirir və bu, davam edəcək".

*****

**Şübhə yox ki, düşmən tərəfdə özünü büruzə verən hərbi xarakterli bu hərəkətlilik müharibədən yana yaşanan xofla yanaşı, həm də qarşıdakı parlament seçkiləri ilə bağlıdır.** Belə görünür ki, Paşinyan sələfləri kimi seçki dövründə özünə güclü PR yaratmaq üçün "Qarabağ kartı"ndan da istifadə eləməyə çalışır. Ancaq bu, həm də "odla oynamaq" deməkdir. Çünki Azərbaycanın daha bir lokal hərbi qələbəsi Nikol Paşinyanın seçki taktikasını, onun hakimiyyətdə möhkəmlənmək planlarını alt-üst edə bilər...

# Qarabağ qaziləri və şəhid ailələri üçün evlər tikilir

**İmişli və Şamaxıda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlər tikilib. Digər rayonlarda da bu kateqoriyalardan olanlar üçün yeni mənzillərin alınmasına başlanılacaq.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən musavat.com-a bildiriblər ki, nazirliyin sifarişi ilə İmişlidə tikilən 54 mənzilli və Şamaxıda tikilən 36 mənzilli yaşayış binalarının inşası artıq başa çatdırılıb. Yaxın günlərdə həmin binalardakı mənzillər növbədə dayanmış Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə veriləcək. Mənzillərdə müasir tələblərə uyğun yaşayış şəraiti yaradılıb, binaların həyət-bacasında abadlaşdırma işləri görülüb. Ümumilikdə bölgələrdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 67 fərdi ev inşa edilir.

Qeyd edək ki, prezident İlham Əliyevin 2 avqust, 2018-ci il tarixli sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün cari ildə əlavə olaraq minimum 300 mənzil alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bu da 2018-ci ildə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilməsi nəzərdə tutulan mənzillərin sayının 2,4 dəfə artırılmasına, nəticə etibarilə bu il 500-dən çox mənzilin həmin insanlara təqdim olunmasına imkan yaradıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

# Milyardları "xortumlamış" keçmiş məmurlar istintaqa çəkilir

## Ziya Məmmədov, Rüfət Aslanlı, Səlim Müslümov, Heydər Əsədov da "MTN çetesi"nin aqibətini yaşaya bilərlər

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin həbsə alınmış generallarının, vəzifəlilərinin bir çoxlarının məhkəmələri artıq yekunlaşıb. İttihamların əksəri təsdiqini tapıb və məhkəmə hökmləri ilə "mahmudovçu"ların üzərinə illərlə dövlətə və iş adamlarına vurduqları ziyanı ödəmək öhdəliyi qoyulub. Bir çox hallarda ödəmələr təmin olunub.**

Belə iddialar var ki, işdən qovulan, bu və ya digər səbəbdən vəzifədən alınan digər məmurların yağmaladığı, ələ keçirdiyi əmlaklar, var-dövlətlə bağlı da istintaq orqanları hərəkətə keçəcəklər.

Hesab sorulmalı olan, dövlətin 100 milyonlarını mənimsəyən xeyli sayda sabiq var.

**Məsələn, sabiq nəqliyyat naziri Ziya Məmmədovun Azərbaycanda yolların inşası zamanı mənimsədiyi milyonlar haqda çox danışılıb.**

Hələ 2012-ci ildə Ziya Məmmədovun qaynı, 74 saylı Yol İstismar Müəssisəsinin direktoru Hilal Bilal oğlu Bilalov 6 milyon manat məbləğində dövlət vəsaitini mənimsəməkdə ittiham olunurdu.

Bu, Ziya Məmmədovun özünün deyil, 1 qohumunun balaca bir idarəyə rəhbərlik edərək qamarladığı məbləğ idi. O dövrdə bu barədə "Yeni Musavat" qəzetinə müəssisənin sabiq baş mühasibi Məmmədrəsul Ağayev məlumat vermişdi.

O, həmçinin demişdi ki, Hilal Bilalov və müavini Rüstəm Paşayev qısa müddət ərzində Zaqatala rayonunda 3 villa inşa ediblər. Hilal Bilalova və Rüstəm Paşayevə məxsus 2 villa Zaqatala rayonu Yuxarı Tala kəndi Tala prospektində, digər villa isə Zaqatala şəhərinin "Qala düzü" ərazisində yerləşir.


Ziya Məmmədov


Rüfət Aslanlı


Səlim Müslümov

Bu təkcə Ziya Məmmədovun qaynılarının dövlət malından - xalqın cibindən əldə etdikləri var-dövlət haqda kiçik bir detaldır. Belə bir halda Ziya Məmmədovun özünün nəqliyyat naziri olaraq xalqdan, dövlətdən nə qədər pul oğurladığını aydınlaşdırmaq üçün elementar riyazi biliklərə sahib olmaq kifayətdir...

**Habelə, Maliyyə Bazarlarına Nəzarət Palatasının keçmiş rəhbəri Rüfət Aslanlının irimiqyaslı korrupsiya əməllərinə və oğurladığı pullar hesabına dəbdəbəli həyat tərzi keçirməsi az əvvəl Azərbaycan mətbuatının manşet yazıları olmuşdu.** Sənədlərə əsaslanan yazılardan belə aydın olurdu ki, Rüfət Aslanlının sürətlə varlanaraq multimilyonçuya çevrilməsinin səbəblərindən biri 2016-cı ildən Maliyyə Bazarlarına Nəzarət Palatasının birbaşa idarəçiliyinə keçən "Bank Standard"ın xilas edilməsi adı altında dövlət vəsaitlərinin talanmasından keçib.

"Bank Standard"ı sağlamlaşdırmaq adı altında Rüfət Aslanlının 40 milyon dollar mənimsəməsi haqda xəbərlər dolaşmaqdadır.

R.Aslanlının özünün deyir ki, əmanətçilərin vəsaitlərinin qaytarılması üçün birinci transda 15 milyon manat tamamilə əmanətçilərin tələblərinin yerinə yetirilməsinə xərclənib. Əmanətçilər isə 15 milyon manatdan bir qəpik də almadıqlarını deyirlər.

İkinci transda isə "Bank Standard" Mərkəzi Bankdan qalan 100 milyon manatı alıb. R.Aslanlı bu dəfə iddia edib ki, həmin vəsaitin 60 milyon manatı fiziki şəxslərin əmanətlərinin qaytarılmasına yönəldilib. Lakin əmanətçilər bu dəfə də heç nə almayıblar...

**Nazir postunu itirib vəzifədə olduğu vaxt varlananlar sırasında 5 il - 2013-cü ildən 2018-ci ilin əvvəlinə qədər əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işləyən Səlim Müslümov da var.**

Səlim Müslümov yola salındıqdan sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondundan böyük həcmdə vəsait yoxa çıxdığı aydın olmuşdu.

Bildirilir ki, uzun illər boyu qurulmuş mexanizm əsasında 2-2,5 milyard manat yoxa çıxıb.

Səlim Müslümovun əlillər üçün tikilən mənzilləri başqa şəxslərə və saxta əlillərə satması ilə bağlı da ilginc məlumatlar bu gün də araşdırılmamış qalıb.

DSMF sistemində mənimsəmə, maliyyə qanunsuzluqları faktları Hesablama Palatası və hüquq-mühafizə orqanları tərəfindən zaman-zaman üzə çıxarılıb. Hesablama Palatasının açıqladığı məlumatlardan aydın olur ki, Fondun müxtəlif şöbələrində məcburi dövlət sosial sığorta haqları üzrə proqnozların tam icra edilməməsi, sahibkarlıqla məşğul olan fiziki şəxslər üzrə məcburi dövlət sosial sığorta haqlarının, maliyyə sanksiyalarının hesablanılmasının düzgün həyata keçirilməməsi, əsas fəaliyyəti növünün düzgün uçota alınmaması, fiziki şəxslərlə hesablaşmaların düzgün aparılmaması səbəbindən məcburi dövlət sosial sığorta haqlarının az hesablanması faktları qeydə alınıb. Bundan əlavə, aşkarlanan faktlar arasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə sosial sığorta nömrələrinin verilməməsi və ya verilmiş sosial sığorta nömrələrinin fərdi uçot bazasına işlənilməməsi səbəbindən yığım hesabına toplanmış vəsaitin müvafiq hesabatlara daxil edilməməsi, şöbələr tərəfindən əmək pensiyalarının təyin edilməsi üçün sənədlərin qəbulu, baxılması və pensiya məbləğinin hesablanılması prosesində qanunvericiliyin tələblərinə tam əməl olunmaması, işləməyən əlil kimi əmək pensiyasını tam məbləğdə alan, lakin faktiki sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə və fiziki şəxslərin işçilərinə artıq pensiya ödənilməsi kimi hallar var. Ötən illərdə həmçinin Fondun Goranboy və Laçın şöbələrindəki irihəcmli korrupsiya və mənimsəmə faktları üzrə cinayət işi başlanıb. S.Müslümovun sədr olduğu dövrdə aparılan araşdırmalar göstərib ki, DSMF Goranboy rayon şöbəsində ilyarımdan az müddətdə mövcud olmayan şəxslərə dair ailə başçısını itirməyə görə əmək pensiyasının təyin edilməsinə əsas verən sənədləri saxtalaşdırılmaqla 310 min 663 manat məbləğində vəsait mənimsənilib. Təxminən eyni faktlar Laçın rayon şöbəsində də aşkarlanmışdı. Baş verən bu rüşvət pramidasının başında dayanan Səlim Müslümov nazir olduğu dövrdə milyardlarla sərvətə sahib olub. Ayrı-ayrı ərazilərdə çoxlu sayda dəyəri milyonlarla ölçülən bahalı villalar tikilib. İddialara görə, o, xarici dövlətlərdə də bahalı mülklərə sahibdir və bank hesabları var.

**Bundan başqa, sabiq kənd təsərrüfatı naziri Heydər Əsədovun da milyonlarla manat dövlət vəsaitin "xortumlaması" haqda çoxsaylı iddialar, faktlar və məlumatlar mətbuatda kifayət qədər əksini tapıb...**

Hər bir halda pullar dövlət büdcəsindən gedib. Bu dəqiqdir. Bəs pullar haradadır? Kimin cibindədir?

Bu suallara keçmiş məmurlar cavab verməldirlər. İstintaqa çağırılıb vəzifəyə təyin olunana qədər olan əmlaklarının, maşınlarının siyahısı ilə vəzifədən çıxarılan zaman olan eyni məzmunlu siyahını qarşılarına qoymaq bu şəxsləri məsuliyyətə cəlb edilməsinə kifayət edə bilər.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Hacı Qalib 3 dövlət qurumuna qarşı

## Sabiq deputat dövlətə məxsus yola iri dəmir darvaza, avtomobil təkərlərinin hərəkətinə mane olmaq üçün xüsusi deşici-kəsici qurğu quraşdırıb

**Sabiq deputat Qalib Salahzadə Bakının Bilgəh qəsəbəsində 35 vətəndaşın yolunu kəsib. Azərbaycanın Baş Prokurorluğu, Bakı Şəhər İcra Hakimiyyəti, Sabunçu rayon İcra Hakimiyyəti həmin yolun açılması üçün hərəkətə keçib. Yolun noyabrın 15-nə qədər açılması məsələsi gündəmdədir.**

Sabiq deputat sənədlərlə dövlətə məxsus olması təsdiqlənən yola iri dəmir darvaza, avtomobil təkərlərinin hərəkətinə mane olmaq üçün xüsusi deşici-kəsici qurğu quraşdırıb və 35 vətəndaşı yolsuz-izsiz qoyub. Bilgəhdə hər kəs bu məsələnin nə ilə sonunclanacağını gözlədiyi bir vaxtda, Hacı Qalib Salahzadə darvazaya 2 əlavə qıfıl da asıb.

Bakı şəhər sakini **Seymur Quliyev** deyir ki, 7 ildir Hacı Q.Salahzadə onun yolunu bağlamaqla yanaşı yaxınlıqda yerləşən torpağını zəbt edib. Həmin torpağın üzərindəki 2 evini - 3 mərtəbəli və 2 mərtəbəli mülklərini yerlə bir edib, həyətindəki hovuzu, yaşıllıqları məhv edib. Məhkəmələr Hacı Qalibin hərəkətlərinin əsassızlığını ortaya qoyan qərarlar veriblər. Amma həmin qanunsuz hərəkətlərə hüquqi qiymət verilməsi üçün illərlə tədbirlər görülməyib.

Bu ilin mayında Baş Prokurorluqda məsələ araşdırılıb və cinayət işi başlanıb. İş materialları istintaq edilmək üçün Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsinin Ağır Cinayətlərin İstintaqı Şöbəsinə göndərilib. İstintaq zamanı müəyyən edilib ki, Hacı Qalib Salahzadə **Seymur Quliyev**, **Nurid Əliyev**lə yanaşı **İntiqam Zakir oğlu Sultanov**un torpaq sahəsini zəbt edib. Bu fakta görə Cinayət Məcəlləsinin 188-ci - torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma maddəsi ilə də cinayət işi başlanıb və digər işlə birləşdirilib.


Qalib Salahzadə

Bundan əlavə, Seymur Quliyev və Bilgəh qəsəbə sakinləri Əliyev Nurid Məcid oğlu, **Rəna Bayramova, Kamil Rəcəbov** və digərlərinin kollektiv ərizə ilə Baş Prokurorluğa müraciət edib.

Yolu bağlanan vətəndaşlarının əlində Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Sabunçu Rayon İcra Hakimiyyətinə ünvanlanmış məktubun surəti də var. Həmin məktubda deyilir ki, müraciətdən sonra apalan araşdırmada faktlar təsdiqlənib, hasara alınmış gediş-gəliş yolunun açılması barədə rəsmi xəbərdarlıq edilib.

**Seymur Quliyev deyir ki, Baş Prokurorluq Bakı Şəhər İcra Hakimiyyətinə məktub ünvanlayaraq qanunsuz olaraq bağlamış yolun açılmasının təmin olunmasını həvalə edib. Bakı Şəhər İcra Hakimiyyətindən isə məktub ərazi üzrə Sabunçu İcra Hakimiyyətinə göndərilib.**

Seymur Quliyevin sözlərinə görə, Baş Prokurorluqdan oktyabrın 15-də BŞİH-ə göndərilən məktubla bağlı hərəkətlilik hələ ki, yoxdur: "Dünən Bakı İcra Hakimiyyətinə zəng elədim. Dedilər ki, Baş Prokurorluqdan məktub daxil olub və Sabunçu İcra Hakimiyyətinə göndəriblər". Şikayətçi deyir ki, icra hakimiyyətinin Hüquq şöbəsinin müdirinin ona cavabı belə olub: "Nemət müəllim deyir ki, bilmirsiz ki, Qalib kimdir, biz nə deyək, Qalibə deyək ağ qapıları? Buldozer aparaq ora? Hüquqşünas dedi ki, qanunsuz tikilini sındıra bilmərik".

**Seymur Quliyevin sözlərinə görə, Sabunçu İcra Hakimiyyətinə sorğu verib ərazidəki "Şəbəkə" restoranının hansı sənədlərə əsasən fəaliyyət göstərməsi haqda məlumat verilməsini xahiş ediblər:** "Hüquqşünasa dedim ki, Sabunçu İcra Hakimiyyəti, konkret olaraq hüquq şöbəsi cavab yazıb ki, orada restoran qanunsuz fəaliyyət göstərir. Bundan sonra hüquqşünas dedi ki, biz bir də rəhbərliyə müraciət edərik. Ona məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə gedəcəyimi dedim. Bildirdim ki, BŞİH yolun açılmasına birbaşa cavabdehdir, 1 ay ərzində baş Prokurorluqdan göndərilən məktubla bağlı icra olunmalıdır - yeni yol qeyd-şərtsiz açılmalıdır".

❑ **E.HÜSEYNOV, ."Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

# Ukraynadakı səfirlikdən 2,4 milyon dollar mənimsəmədə "ikinci pərdə" - səfirdən ittihamlı təkzib

## Azər Xudiyev sabiq səfir Tələt Əliyevdən erməniəsilli nazirə şikayət etmədiyin deyir, amma...

**Azərbaycan Xarici İşlər Nazirliyinin Ukraynadakı indiki və keçmiş səfirlərinin arasındakı qalmaqala görə araşdırmaya başlaması haqda ötən saylarımızda məlumat vermişdik. Xatırladaq ki, indiki səfir Azər Xudiyev Tələt Əliyevin səfir olduğu dövrdə 2008-ci ildə səfirlik binasının təmirinə ayrılmış 2,4 milyon dollar vəsaiti mənimsədiyini, binanın təmir olunmadığını bildirib.**

Ukrayna Baş Prokurorluğu araşdırmalara başlayıb, sabiq səfirin Kiyevdəki evində axtarış aparılıb. A.Xudiyevi qərəzli olmaqda ittiham edən T.Əliyev isə Kiyevdə mətbuat konfransı keçirib, bu iddianı təkzib edib. T.Əliyev 2001-2010-cu illərdə Azərbaycanın Ukraynada səfiri olub.

A.Xudiyevin Ukraynanın erməni əsilli daxili işlər naziri Arsen Avakova və Ukrayna Baş Prokurorluğuna müraciət etməsi hətta parlament səviyyəsində müzakirə edilib, bəzi deputatlar bunu E.Məmmədyarovu nazirlikdə işini yaxşı qurmamaqda qınayıb.

Az qala 10 gündür mediada ciddi müzakirə olunan bu məsələ barədə Ukraynadakı səfirlik rəsmi məlumat yayıb.



**Məlumatda deyilir:** "Bəzi kütləvi informasiya vasitələrində keçmiş səfir Tələt Əliyevin hazırkı səfir Azər Xudiyevə qarşı səsləndirdiyi əsassız ittihamlarla bağlı Milli Məclis üzvlərinin narahatlığına səbəb olan məqamlara dair aşağıdakıları bildirmək istəyirik: 2016-cı ildə səfir A.Xudiyev tərəfindən Ukraynadakı səfirliyin inzibati binası təhvil alınarkən, onun qəzalı olub-olmamasının qiymətləndirilməsi və binada çatların yaranma səbəbinin müəyyən edilməsi məqsədilə səfirlik tərəfindən Ukrayna Tikinti-konstruksiya üzrə Dövlət Elmi-Tədqiqat İnstitutuna müraciət edilib və müvafiq ekspertizanın təyin edilməsi üçün mütəxəssislər dəvət olunub. Ekspertizanın yekun rəyinə əsasən müəyyən olunub ki, binanın zirzəmisi və damı qəzalı vəziyyətdədir.

Bildirmək istəyirik ki, 2007-2009-cu illərdə səfirliklə Ukrayna vətəndaşı, "SPD Qashimova S.Q" şirkətinin təsisçisi Səbinə Həşimova arasında bağlanmış müqaviləyə əsasən Səfirliyin inzibati binasında əsaslı təmir işlərinin aparıldığı müəyyən edilib. Lakin İnstitut tərəfindən aparılmış araşdırmada binada heç bir əsaslı təmir işlərinin aparılmadığı aşkarlanıb.

Daha sonra səfir A.Xudiyev S.Həşimovanı səfirliyə dəvət edərək, ekspertizanın rəyini onun diqqətinə çatdırıb və bağlanmış müqavilənin şərtlərinin düzgün yerinə yetirilməməsi ilə bağlı iradlarını bildirib. S.Həşimovadan xahiş olunub ki, həmin müqaviləyə əsasən Səfirliyin binası tam təmir olunaraq təhvil verilsin. Çoxsaylı müraciətlərə baxmayaraq, şirkət əsaslı təmirin aparılmasından imtina edərək görülmüş işlərlə bağlı heç bir təhvil-təslim sənədlərini səfirliyə təqdim etməyib.

S.Həşimovanın Ukrayna vətəndaşı olduğunu və həmin şirkətin Ukraynada təsis edilərək qeydiyyatdan keçdiyini nəzərə alaraq, sözügedən müqavilənin icrasını tam təmin edilməsi məqsədilə Səfirliyin müraciəti əsasında Ukrayna Baş Prokurorluğunda araşdırmalar aparılır.

Səfirlik tərəfindən T.Əliyevlə bağlı hər hansı məsələdə yerli hüquq-mühafizə orqanlarına, eləcə də Ukrayna daxili işlər naziri A.Avakova müraciət edilməyib. Hesab edirik ki, xüsusilə A.Avakovun adının hallandırılması və bu ətrafda eyforiya vəziyyətinin yaradılması məqsədyönlü və qərəzli xarakter daşıyır. Onu da xüsusilə qeyd etmək istəyirik ki, sözügedən məsələ ilə bağlı yekun hüquqi qiymətin verilmədiyi halda bəzi kütləvi informasiya vasitələrində hər hansı bir fikrin söylənilməsi məqsədəmüvafiq deyil".

*Səfirliyin gecikmiş reaksiya təəccüb doğurmaqla yanaşı bir sıra sualları yenə açıq buraxıb. Əvvəla, niyə səfirlik şikayət məsələsi hətta Milli Məclisdə müzakirə səviyyəsinə çıxmadan təkzib edilməyib. Əgər belə bir şikayət yoxdursa, niyə T.Əliyevin evində axtarış aparılıb?*

Yeri gəlmişkən, Milli Məclisdə Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri **Rüfət Quliyev** BakuPost-a müsahibəsində bu qalmaqalla bağlı səfirlə danışdığını deyib. O, Azər Xudiyevin Ukrayna hüquq-mühafizə orqanlarına müraciət etdiyini təsdiqləyib: "Azər Xudiyev rəsmi formada təmir aparmış Ukrayna şirkətindən şikayət edib. Azər Xudiyevin Tələt Əliyevin adını şikayətində yaza da bilməz, ixtiyarı yoxdur. Səfir Ukrayna şirkətilə bağlı müraciət edib. Şirkət də yoxlanmağa başlayanda sabiq səfir şirkəti müdafiə etməyə başlayıb. Bu məsələni qapalı formada araşdırmaq mümkün idi. Təəssüf ki, Tələt Əliyevin keçirdiyi mətbuat konfransı ilə bütün bu məsələlər bu formada üzə çıxdı, yayıldı".

**Deputat deyib ki, Azər Xudiyev rəsmi icazə olmasa idi, belə addım atmazdı:** "Azər Xudiyev Xarici İşlər Nazirliyinə rəsmi məktub yazıb, müraciət edib. Mən burada tərəflərdən hər hansı birini müdafiə edəcək mövqedə deyiləm. Bu gün rəsmi səfir Azər Xudiyevdir, sabiq səfir Tələt Əliyev də hörmətli ağsaqqaldır. Pis vəziyyətdə qalmışıq".

Maraqlıdır ki, bu qalmaqalla bağlı məlumatlı olan deputat səfirin erməni daxili işlər nazirinə müraciət etdiyini təkzib etməyib. O deyib ki, bu məsələlərdən bizə qarşı istifadə edən ermənilərə bəhanə verməməliyik: "Amma bu o demək deyil ki, Arsen Avakov səhər işə gəlir, düşünür ki, azərbaycanlılara qarşı necə pislik edib. Arsen Avakov orada pul qazanır, həm də bunu bilir. Müəyyən siyasi məsələlərə görə ona toxunmurlar. Hamı bilir ki, bu insan biznesmendir. Təbii ki, sabah hər hansı bir məsələdə o, ermənilərin tərəfindən olacaq. Bu, birmənalıdır və bunu da başa düşmək lazımdır".

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# Müşfiqlə bərabər Əhməd Cavadın da qalıqları axtarılır

## Sümüklər üzərində DNT analizləri başlayıb, amma nəticələrin nə zaman məlum olacağı bilinmir...

**Sovet repressiyalarının qurbanı olan şair Mikayıl Müşfiqin qalıqlarının müəyyən olunması istiqamətində işlər davam etdirilir.**

Bu barədə "Yeni Müsavat"a Tarix İnstitutundan məlumat verilib. Bildirilib ki, Mikayıl Müşfiqin Qaradağ rayonu Puta qəsəbəsində qalıqlarının tapılması ilə bağlı iddiaların araşdırılması üçün ölkə başçısı İlham Əliyev İşçi Qrupun yaradılması barədə göstəriş verib. Bu məlumatdan sonra repressiya qurbanı olan daha bir görkəmli şairimiz, Azərbaycan himninin müəllifi Əhməd Cavadın da qalıqlarının həmin ərazidə olmasına dair ehtimallar irəli sürüldü. Bundan sonra isə Əhməd Cavadın nəvəsi Anar Axundzadədən də DNT üçün analizlər götürülüb. İnstitutdan bildirilib ki, Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında yayılan materialların araşdırılması ilə bağlı işlərin gedişatına prezident İlham Əliyev gündəlik nəzarət edir.



**Tarixçi Dilavər Əzimli** "Yeni Müsavat"a bildirib ki, hazırda onlar da tarixçi kimi gedişatı yaxından izləyirlər. Eyni zamanda tarixçi söyləyib ki, Əhməd Cavadın da qalıqlarının müəyyən olunması istiqamətində aparılan işləri yüksək qiymətləndirir: "Hazırkı vaxtda biz hər hansı bir fikir söyləyə bilmərik. DNT analizlərinin götürülməsini gözləyirdik. Artıq məlumatlara görə, bu analizlər hər iki şairimizlə bağlı götürülüb və işlər aparılır. Nəticələr bəlli olduqdan sonra, biz də şərh verəcəyik. Hələ ki yaradılan İşçi Qrupun apardığı işi və onların verdikləri açıqlamaları oxuyub, məlumat alırıq".

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında yayılan materialların araşdırılması ilə bağlı Prezident İlham Əliyevin tapşırığına əsasən yaradılmış **İşçi Qrupun üzvü, akademik İsa Həbibbəyli** isə "Trend"ə açıqlamasında söyləyib ki, prezident İlham Əliyev İşçi Qrupa konkret olaraq vəzifələr tapşırıb: "Hazırda İşçi Qrup bu vəzifələrin icrası istiqamətində intensiv iş aparır. AMEA tərəfindən Müşfiqə aid arxiv sənədlərinin araşdırılması və məlumatların toplanılması istiqamətində işlər aparılır. Mikayıl Müşfiqin şəxsi işi bizim əlimizdədir, bu iş bizim tədqiqatçılara məlumdur. Oradakı sənədləri diqqətlə öyrənirik. Komissiyaya onun nəticələri barədə məlumatlar verəcəyik".

**İşçi Qrupun üzvü əlavə edib ki, M.Müşfiqin güllələnməsi və bundan sonra baş verənlərlə bağlı iki versiya var:** "Bu versiyalardan biri odur ki, Müşfiqi Nargin adasında güllələyiblər və daha sonra onu, eləcə də onunla birlikdə güllələnən şəxslərin hamısını Xəzər dənizinə atıblar. İkinci versiya odur ki, onlar kütləvi məzarda dəfn ediliblər. Lakin hər iki versiya şifahi məlumatlardan ibarətdir, xalq yaddaşı əsasında formalaşıb. Bunların heç birini təsdiq edən rəsmi sənəd yoxdur. Ona görə də indi DNT kodunun müəyyən edilməsi çox mühüm məsələdir. Bu istiqamətdə səlahiyyətli rəsmi orqanlar iş aparırlar. Müşfiq 1938-ci ildə yanvarın 5-dən 6-a keçən gecə güllələnib. Onun işində bu faktı təsdiq edən arayış var. Amma harada güllələnib və harada dəfn edilib? Şəxsi işdə bu barədə məlumatlar yoxdur. Buna görə də indi biz araşdırma üçün digər sənədlər axtarırıq".

Tarix İnstitutundan "Yeni Müsavat"a bildirilib ki, artıq Puta qəsəbəsindəki qəbiristanlıqdan çıxarılan sümüklər Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə təqdim olunub. Bildirilib ki, eyni zamanda Mikayıl Müşfiqin ata tərəfdən olan qohumları tapılıb və onlardan nümunələr götürülüb. Lakin analizlərin cavabının nə zaman məlum olacağı bilinmir.

Onu da qeyd edək ki, Azərbaycanda DNT analizi götürülə bilir. Bu analizin qiyməti 2-3 min manat arasında dəyişir. DNT analizi həm də sağlamlıqla bağlı bütün həqiqətləri ortaya qoyur. Çünki hansısa xəstəlik obyektiv səbəblərə görə özünü büruzə vermir. Müəyyən vaxta qədər onlar insan orqanizmində gizli olaraq qalmağı bacarır. Bu səbəbdən DNT diaqnostikası sağalmaz xəstəliklərin sonradan özünü büruzə verməsinin qarşısını almaq üçün çox xeyirlidir. Bu xəstəliklər sırasına isə altsgeymer, şəkərli diabet, kökəlmə, xərçəng, genetik mutasiyanın çətin forması, ürəktutmaları və sair daxildir.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 239 (7128) 9 noyabr 2018

# DTX dəmiryolunda böyük bir faciənin qarşısını aldı-təfərrüat

## Relslərinin birləşdiricilərinin, rels altlıqlarının və digər metal hissələrini sökənlər həbs olundu

**Azərbaycanda nəqliyyat infrastrukturunun dinamik inkişafı, əhalinin və iqtisadiyyatın dəmir yolu nəqliyyatına artan tələbatına uyğun olaraq bu istiqamətdə təhlükəsizlik tədbirlərinin daha da gücləndirilməsi daima diqqət mərkəzində saxlanılır.**




Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr mərkəzindən bildirilib ki, 2018-ci il oktyabrın 30-da səhər saatlarında dövlət əhəmiyyətli Bakı-Ələt-Horadiz dəmir yolunun Ələt-Horadiz xətti hissəsinin "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İnfrastruktur Departamentinin Yol xidmətinin Saatlı yol sahəsinin xidmət etdiyi 28-29-cu kilometrliyində dəmir yolu xətti relslərinin birləşdiricilərinin, rels altlıqlarının və digər metal hissələrin 400 metrlik məsafədə söküldüyü barədə məlumat daxil olub.







Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində dərhal başlanılmış cinayət işi üzrə kompleks istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

İstintaq zamanı qeyd olunan cinayət əməllərinin Azərbaycan Respublikasının vətəndaşları Əhmədov Novruz Əsəd oğlu və Orucov Ruslan Nodar oğlu tərəfindən törədildiyi müəyyən edilərək, həmin şəxslər cinayət məsuliyyətinə cəlb olunub və barələrində məhkəmənin qərarı ilə həbs- qətimkan tədbiri seçilib.

Məlum olub ki, 2018-ci il oktyabrın 29-da Ruslan Orucov və Novruz Əhmədov sonuncunun idarə etdiyi avtomobillə "Azərbaycan Dəmir Yolları" QSC-nin İnfrastruktur Departamentinin Yol xidmətinin Saatlı yol sahəsinin xidmət etdiyi Xıdırlı-Qaragünə mənzilinin 28-29-cu kilometrliyinə gəlib, törətdikləri əməllərin həmin xətt üzrə sərnişin və digər qatarların hərəkətinə aşkar təhlükə yaradacağını bilə-bilə əvvəlcədən özləri ilə götürdükləri alət və vasitələrdən istifadə etməklə 29 oktyabr saat 21-dən 30 oktyabr saat 04:00-dək olan müddət ərzində dəmir yolu xəttində qatarların hərəkət təhlükəsizliyini təmin edən 99 ədəd D-65 metal altlıq, 400 ədəd bərkidici, o cümlədən Ələt və əks istiqamətdə dəmir yolu relslərini bir birinə bağlayan 6 ədəd R-65 yanlıqları və sair metal hissələri sökərək hadisə yerindən qaçıblar.

Araşdırmalar zamanı, o cümlədən təqsirləndirilən şəxslərin ifadələri yerində yoxlanılarkən cinayəti törədərkən istifadə etdikləri alət, vasitə və digər maddi sübutlar hadisə yerindən aşkar edilərək götürülüb.

**Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

# AQTA Gürcüstandan gətirilən 26 ton zərərli kartofu geri qaytardı

## Məhsulda nematodu adlı zərərli orqanizmlər aşkar ediblər



**Ölkəyə idxal olunan qida məhsullarına nəzarət tədbirləri çərçivəsində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) müfəttişləri Gürcüstandan fitosanitar sertifikatla ixrac olunan 26042 kiloqram kartof məhsulundan götürülən nümunələrdə gövdə nematodu zərərli orqanizmləri aşkar ediblər.**

Agentlikdən "Report"a verilən məlumata görə, aşkar olunan zərərli orqanizmin karantin tətbiq edilən gövdə nematodu olması ehtimal edilərək, məhsuldan nümunə götürülüb və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına göndərilib.

Müayinələr nəticəsində məhsullarda karantin tətbiq edilən gövdə nematodunun olması öz təsdiqini tapıb. Aşkarlanan zərərli orqanizmin təhlükəliliyi nəzərə alınaraq, nəqliyyat vasitəsində olan 26 042 kiloqram kartof məhsulunun Gürcüstan Respublikasına qaytarılması üçün aidiyyəti üzrə müraciət edilib.

"Fitosanitar nəzarəti haqqında" qanuna əsasən, idxal olunan bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərlə sirayətlənməsi riski mövcud olduqda, onların ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısını almaq məqsədilə Qida Təhlükəsizliyi Agentliyi müvafiq tədbirlər həyata keçirir.

Kartofun gövdə nematodu dəyirmi qurdlardan olub, ölçüsü 0,72-1,44 mm-dir. Bitkinin bütün yeraltı (kökyumruları, kökümsovları) hissəsinə zərər verir. Növ çoxzonalılıq təşkil edir və mülayim iqlim qurşağına malik olan regionlarda yayılır. Sirayətlənmiş kökyumrularında yaş və yaxud quru çürümə olur ki, bu da anbarlarda saxlanılan zaman digər kökyumrularına da yayılır. Gövdə nematodunun zərərvericiliyi saxlanma zamanı, əsasən də temperatur dəyişikliyi olan zaman təzahür edir. Kiçik məsafələrə torpaq vasitəsilə yayıla bilən bu oqanizmlər suvarma zamanı su vasitəsilə də yayıla bilir.

# Bakıda bu gün leysan gözlənilir



**Noyabrın 9-da gözlənilən hava şəraiti açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında sabah arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə yağışın leysan xarakterli intensiv olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 8-10, gündüz 14-16 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu, nisbi rütubət 80-90 faiz olacaq.

Azərbaycanın rayonlarında noyabrın 9-da hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin Lənkəran-Astara zonasında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın intensiv olacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 7-11, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 4-9 dərəcə isti təşkil edəcək.

Nazirlik xəbərdarlıq edir ki, Bakıda və Abşeron yarımadasında arabir yağışlı hava şəraiti noyabrın 9-u gündüzədək davam edəcək. Gecə və səhər yağışın bəzi yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var.

# Badamdardakı sürüşmədə böyük bir qaya uçmaq üzrədir-təhlükə

## ETSN rəsmisi: "Həmin qaya parçasının altı tamamilə boşalıb"

**Bakıda sürüşmə zonalarında aktivlik hələ də davam edir. Bu barədə "Yeni Müsavat"a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov məlumat verib. Ə.Qaralov bildirib ki, Badamdar ərazisindəki sürüşmə zonasında böyük bir qayanın altı boş qalıb. O, həmçinin qeyd edib ki, havanın yağmurlu keçməsi də sürüşməyə təsirsiz ötüşməyib: "İstənilən sürüşməyə meylli ərazilərdə atmosfer çöküntüləri olduqda aktivlik bir az da artır. Noyabrın 8-də Badamdarda sürüşmə ərazisinə baxış keçirdim. Ərazidə gərginlik qalmaqdadır. Axşam saatlarında atmosfer çöküntüləri bir qədər çox oldu. Çünki gecə boyu yağış yağdı. Asılı vəziyyətdə qalmış kütlələrdə uçqunlar baş verir. Eyni zamanda yuxarı hissədə, yəni yaşayış evlərinin hasar divarlarının yaxınlığında, hətta ona bitişik ərazidə böyük qaya parçası var. Həmin qaya parçasının altı tamamilə boşalıb. Eyni zamanda qayanın özü də əvvəlki günlərlə müqayisədə bir qədər əyilib. Altı tamamilə boş olduğu üçün asılı vəziyyətdədir. Ümumi çatlarda isə artımlar qeyd olunub. Sürüşmə kütləsi üzərində gərginlik qalır".**



Ə.Qaralov Bakının digər ərazilərində olan sürüşmə zonalarındakı vəziyyətlə bağlı bunları söyləyib: "Xırdalan, Fatmayi, Zığ ərazilərinə də baxış keçirmişik. Sürüşmənin aktivləşdiyi Zığ ərazisində gərgin vəziyyət qalmaqdadır. Sürüşmə kütlələrinin dinamikasında da gərginlik müşahidə edilir. Torpaq üzərində mövcud olan çatların üzərində isə artımlar gözlə görüləcək səviyyədədir. Digər ərazilərdə isə lokal tipli çökmə var. Bayıl ərazisinə gəlincə isə orada vəziyyət stabildir".

Bayıl ərazisində "Teleqüllə" yaxınlığında olan sürüşmə səbəbindən ərazidə məskunlaşan 98 ailə bu ilin yanvar ayından etibarən 11 aylıq müddətə kirayə mənzillərə köçürülüb. Əldə etdiyimiz məlumatlara görə, həmin ailələrin əksəriyyəti öz evlərinə qayıdıblar. Sakinlər bildirirlər ki, verilən kirayə pulu az olduğu üçün Bayıl ərazisində ev tapa bilmirlər. Ona görə də məcbur qalıb, öz evlərinə geri dönüblər. Lakin sürüşmə zonasında kommunal xətlər kəsildiyi üçün ailələr çətin vəziyyətdədirlər. Onlar "Yeni Müsavat"a bildiriblər ki, əgər barələrində konkret qərar verilməsə, dekabr ayında aksiya keçirəcəklər. Kirayə pulunun məbləğinə gəlincə isə qeyd edək ki, normativlərə uyğun olaraq ailə tərkibi 1-5 nəfər arası olanlara 200 manat, 6-7 nəfər olana 250 manat, 8-dən çox olanda 300 manat müəyyən olunub. O əraziyə işıq, qaz və digər kommunal xidmətlər müvəqqəti dayandırılıb.

Ərazidəki problemlərlə bağlı Səbayel Rayon İcra Hakimiyyətindən bildirilib ki, uzun müddətdir ki, həmin ərazidə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Mərkəzi, Geologiya İnstitutu, o cümlədən Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri araşdırmalar aparırlar: "Bu araşdırmaların nəticəsi ilə bağlı Nazirlər Kabinetinə geniş material təqdim olunmalıdır. Nazirlər Kabinetindən də ərazidəki mövcud tikililərin gələcək taleyi ilə bağlı qərar qəbul olunacaq. Qərara əsasən, ya həmin 98 ailəyə müvafiq kompensasiya ödənilərək köçürüləcək, ya da digər qərar qəbul olunacaq. Nazirlər Kabinetinin qərarı da Səbayel Rayon İcra Hakimiyyəti tərəfindən icra olunacaq".

Müvafiq orqanlar bildirirlər ki, 98 ailənin sahib olduqları evlərin heç bir sənədi yoxdur. Buna baxmayaraq, sakinlərə kompensasiya ödəniləcək.

Lakin Badamdar ərazisindəki təhlükəli sürüşmə zonasında yaşayan 11 evin (villanın) sahibləri ilə bağlı heç bir açıqlama verilmir. Onların da kommunal xətləri kəsilsə də, sakinlər generator və digər elektrik verən bu kimi cihazlardan istifadə edərək, mənzillərini tərk etmirlər. Onların evlərini tərk etmələri ilə bağlı rəsmi qərar da yoxdur. Sadəcə olaraq baş nazirin müavini Hacıbala Abutalıbov ərazidə olduğu zaman jurnalistlərə açıqlamasında bildirib ki, sürüşmə zonasında inşa edilən evlər qanunsuz tikililərdir. Onun sözlərinə görə, bu mənzillər sökülən zaman, sahiblərinə də hər hansı bir kompensasiya ödənilməcəyək.

**Onu da qeyd edək ki, bu ərazilərdə torpağın 1 sotunun qiyməti 40-100 min manat arasında qiymətlə dəyişir.**

❑ **Əli RAİS, "Yeni Müsavat"**




Cümə söhbətləri

# İnsanın əlində olan ən böyük və ən gerçək dəyər

**Bismilləhir-Rahmənir-Rahim!**
**Əziz dinimiz insanı daima düşünməyə, təfəkkür etməyə dəvət edir. Kortəbii iman anlamı İslamda ümumiyyətlə yoxdur. İnsan düşünüb Allahını tapır, iman gətirir.**

Lakin düşünmə prosesi iman gətirməklə tamamlanmır. Ümumiyyətlə iman - dinamik bir prosesdir. İnsan özü ilə məşğul olduqda, öz durumunu, vəziyyətini təhlil etdikdə imanı dərinləşir, zənginləşir, kamilləşir.

### Düşünən insan nicat tapar

Bu düşüncələr arasında dinimiz tərəfindən daha çox tövsiyə edilən kateqoriyalar vardır. Və bunların arasında çox ümdə yerdə həyat və ölüm mövzusu durur. Dinimiz tövsiyə edir ki, insan bir gün dünyaya gəldiyi kimi, günlərin birində də dünyadan gedəcəyi barədə düşünsün. Ulu Yaradan insanı xəlq etdiyi kimi, bir gün də dünyadan aparacaqdır. İnsanın bir gün bu dünyadan gedəcəyi barədə düşünməsi qədər heç bir şey onun vücudi islahatına təsir etmir. İnsan ölüm barədə düşünəndə, durumunun islahını bu gün-sabaha qoymur, hansısa məchul mətləb, mücərrəd mövzu kimi öz ruhi-mənəvi inkişafına yanaşmır. Əksinə, bu məsələlərə, müqəddəratı üçün müəyyənedici bir amil kimi yanaşmaya üstünlük verir.

Bizi yaradan, bütün nemətləri əta edən, kamilləşməyimiz üçün bütün imkanları bəxş edən, ağıl, təhlil, məntiq, düşüncə, yaxşını pisdən ayırma qabiliyyəti verən əziz Rəbbimiz, Öz göndərişində - Müqəddəs Qurani-Kərimdə həyat və ölüm mövzusuna çox toxunmuşdur. Misal üçün, "Mülk" surəsinin 2-ci ayəsinə toxunaq: "O (Allah) ölümü və həyatı yaratdı ki, sizlərdən hansınızın yaxşı əməl sahibi olmasını sınasın. O, yenilməz qüdrət sahibi və bağışlayandır".

Allah Təala izah verir ki, insanın həyat və ölümü - onun sınanması, imtahana çəkilməsi üçündür. Bilinsin ki, hansı insan əməl baxımından yaxşı, hansı isə pisdir.

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



Əziz İslam Peyğəmbərindən (s) bu mövzuda buyurulur: "Kim nə ilə (hansı əməl və sifətlə) ölərsə, Allah da onu həmin şeylə dirildər".

Dinimizin məntiqində kim nə cür mənəvi azuqə toplamışsa, hansı əxlaqi, mənəvi keyfiyyətlərlə yüklənmiş ruhla bu dünyanı tərk etmişsə, Allah dərgahına da məhz həmin mənəvi durumla gələr.

### Axirətə əliboş getməyək

Mübarək dinimiz insanın müqəddəratının öz əlində olması mövzusuna çox böyük diqqət yetirir. Və bu müqəddərata təsir etmə baxımından ibadət kimi vacib kateqoriyanın əhəmiyyətliyini vurğulayır. İbadətin də hansısa abstrakt anlam deyil, ruh və niyyətin bir vəhdət təşkil etdiyi durum olmasına iman əhlinin diqqəti cəlb edilir.

Bu mövzuda Həzrət Peyğəmbərdən (s) nəql edirlər: "Sizlərdən kimsə öldükdə, onun Qiyaməti başlayır. Ona görə də Allaha elə ibadət edin ki, sanki Onu görürsünüz və hər an Ondan rəhmət diləyirsiniz".

Gördüyümüz kimi, burada insan ölümünün dönməz bir şey olduğu vurğulanır. Yəni insan nə edirsə, ölümünə qədər mənası var. Bundan sonra, onun haqq-hesab mərhələsi, iman və əmələ görə sorğu mərhələsi başlanır. Əlbəttə ki, Rəhim və Rəhman Allah elə bir imkanlar müəyyən etmişdir ki, insanın ölümündən sonra da müqəddəratına müsbət təsir göstərilə bilir. Məsələn, gözəl tərbiyə edilmiş övladlar nə qədər ki, savab iş görürlər, valideynlərinin aqibətinə müsbət təsir göstərirlər. Yaxud, insanın həyatdaykən gördüyü nəcib işlər - su çəkib, xəstəxana, məscid tikdirib - nə qədər ki, bunlar fəaliyyət göstərir, insanın aqibətinə gözəl təsir buraxılır.

### Tövbəni təxirə salmamalı

Həzrət Əlinin (ə) böyük oğlu İmam Həsənə (ə) etdiyi nəsihətdə, həyat və ölüm mövzusuna çox dərin bir aydınlıq gətirilir: "Ey oğlum! Bil ki, sən əslində dünya üçün deyil, axirət üçün yaradılmısan. Qalmaq üçün deyil, getmək üçün xəlq olunmusan. Sən köçülən bir mənzildə, davamsız, müvəqqəti verilən bir sarayda, axirət yolunun üstündəsən.

Ölüm elədir ki, nə qaçan onun əlindən xilas olar, nə də axtardığı əlindən çıxar. Əksinə - məcburiyyətlə ona çatar. Ona görə də qorx ki, onlara görə tövbə edəcəyini vəd verdiyin günahların başında ölüm səni haqlasın və tövbə etməyə qoymasın. Bu vaxt özünü məhv etmiş olarsan".

Həzrət Əli (ə) bəlağətilə bütün insanlara, bəşəriyyətə çatdırılır ki, insan tövbəni, məğfirət diləməni sonraya saxlamasın. Lənətlik iblis insana unutdura bilər ki, bir gün ölüm onu haqlayacaq, xəbərdarlıq-filan etmədən həyatına son qoyacaq. Odur ki, insan hər an özü ilə məşğul olmağa, tövbə kimi onun ruhi durumunu təravətləndirən, eybəcərliklərdən qurtaran bir vasitəni unutmamağa dəvət edilir.

Həzrət Əlidən (ə) nəql edilən digər hədisdə tövbəni sonraya saxlayanın təhlükə qarşısında olması vurğulanır: "Tövbə işini sabaha saxlayan kəs, ölümün hücumu ilə çox böyük təhlükə qarşısındadır".

İmam Cavaddan (ə) nəql edirlər: "Tövbəni təxirə salmaq - aldanmaq və qəflətdir, bu gün-sabah etmək isə çaşqınlıq və məəttəlçilikdir".

Dinimiz tövbənin vaxtında edilməsi zərurətini müxtəlif tərəflərdən açıqlayır. Artıq ölüm insanı haqlayanda tövbənin əhəmiyyəti olmayacaqdır. Amma insan bundan öncə əməllərindən peşman olub, kamillik yolunun yolçusu olmaq istəsə, Allah Təalanın rəhmətinə qovuşacaqdır. Böyük İslam Peyğəmbərindən (s) bu mövzuda nəql edilən hədisdə bildirilir: "Kim əzabı müşahidə etməmişdən qabaq tövbə etsə, Allah onun tövbəsini qəbul edər".

### Ömrü qənimət bilməli

Dinimiz həyatın nemət olmasını unutmamağı, ömrü qənimət bilməyi tövsiyə edir. Həyat elə bir nemətdir ki, onun məhdudluğu hamı üçün eynidir. Kasıb üçün də, dövlətli üçün də, savadlı üçün də, bisavad üçün də, yaxşı üçün də, pis üçün də - hər bir insan üçün bu, məhdud, müddətli bir məfhumdur. Heç bir insan üçün müddətsiz həyat müəyyən edilməmişdir. Həzrət Peyğəmbərimizdən (s) nəql edilir: "Həyatın müddəti məhduddur və heç kəs, onun üçün müəyyən edilmiş ömürdən çoxuna çata bilməz. Buna görə də, ömür başa çatmamış, tələsin".

Əziz Peyğəmbərimiz (s) bu sadə, lakin son dərəcədə mühüm həqiqəti bizlərə çatdırır. Bəyan edir ki, həyat məhduddur, hamı həyatla vidalaşacaq. Və əql diktə edir ki, bu sonlu həyatdan sonra gələcək ömürdə, əbədi həyatda əliboş və kor-peşman olmamaq üçün indidən tədarük görmək gərəkdir. Aqibətinlə, durumunla, müqəddəratınla bağlı nə isə etmək istəyirsənsə, tələs, ey insan! - deyir dinimiz.

Həzrət Əlidən (ə) nəql edilir: "Günün keçəni - səndən gedəndir, gələcəyi - şübhəlidir və indiki zaman isə - fürsətdir".

Keçən gün, saat, dəqiqə - artıq itirilmişdir, geriyə dönməzdir. Zaman sadə riyazi funksiya deyil, düstur düzəldib zaman üzrə irəliyə-geriyə getmək mümkün deyil. Heç kəs zaman maşınına minib, geriyə dönüb aqibətinə düzəliş edə bilməz. Və gələcək də sual altındadır. Heç kəslə müqavilə bağlanmayıb ki, bəs filan qədər yaşayacaqsan. Cavanı da, yaşlısı da eyni durumdadır, müəmmalı gələcək önündədir. Odur ki, kiminsə "sabah düzələcəyəm, birisi gün filan işi görəcəyəm" şüarı ilə yaşamaq tamamilə məntiqsiz bir işdir. İnsan necə bilə bilər ki, onun üçün ümumiyyətlə sabah olacaqdır? Məgər hər gün dünyanın hər bir yerində həyatla vidalaşan insanlar bilirdilərmi onları gözləyən aqibəti?

Amma insanın gerçəkdə ixtiyarında olanı - indiki zamanıdır. İndi gərək insan düşünsün öz müqəddəratı barədə, öz durumunun islahı barədə, geriyədönməz zamanı öz zərərinə deyil, xeyrinə işlətməsi barədə. Həzrət Əlidən (ə) bu barədə nəql edilir: "Ey camaat! Elə indini, indicə vaxtını qənimət bilin! Peşman olmamış və hər bir kəs "əfsus olsun ki, Allahın işində səhlənkarlıq etdim" deməmiş, vaxtı qənimət bilin!".

Bəli, gələcək o gün, hamı üçün gələcək! Və hər bir adam üçün fərdi olaraq gələcək. O zaman "kaş geri qayıdıb, filan işi görərdim!", "kaş namaz qılaydım, ibadətimdə diqqətli olardım!", "kaş zülmə, haqsızlığa dözməyəydim, etiraz edəydim", "kaş haqqı nahaqqın ayağına verməyəydim!" deməyin mənası olmayacaq! Bu "kaşlar"ın əhəmiyyəti olmayacaqdır! İnsan bu gün öz aqibəti ilə məşğul olmalıdır! Nə qədər göz önündə ibrətlər vardır! Dünyanı silkələyən diktatorlar bir göz qırpımında ölüb gediblər, vərəsələri də qalmayır! Zalımlar var ki, 10-15 il zülm etmək, sərvət toplamaq üçün min oyundan çıxıblar, nəticələri də tənhalqda, hamı tərəfindən unudulmuş vəziyyətdə ölmək olub! İnsan unutmamalıdır bu ibrətləri…".

### İnsan öz vəzifəsini bilsə...

Ən başlıcası odur ki, öz müqəddəratını müəyyən etmək, aqibətini xeyrə calamaq üçün insana azacıq səy lazımdır, böyük bir iş lazım deyil. Ən əhəmiyyətlisi isə - düşünməkdir! Məhz düşünmək insanı tənəzzüldən qoruyar, məhvdən hifz edər. İnsan anlasa ki, müvəqqəti bir həyatdadır, buraya gəlib insan olaraq öz vəzifəsini yerinə yetirməyə, Allah qarşısında öz təklifini həyata keçirməyə - kökündən dəyişər öz həyatını. Anlasa ki, bütün gedənlər kimi, bir gün onun da qapısı döyüləcək və əbədi yola dəvət alacaq - insan öz həyatını tam fərqli qurar.

Hamı bilir: Allaha inanan da, inanmayan da, Qiyamət gününə etiqadı olan da, olmayan da qəbul edir ki, bu həyatda yaşayış əbədi deyil. Və azca düşünən insan razılaşar ki, insanın «mən»i ölməzdir. İnsanın cismi ölə bilir, amma onun mahiyyətini təşkil edən «mən» ölə bilməz, bunun ölməsini təsəvvür etmək mümkün deyil.

Bunları anlayan insan onu da anlayar ki, onun yeganə həqiqi dəyəri vardır. Bütün digər nemətlər o zaman mənalıdır ki, insan bu nemətinə yiyə dursun. O nemət - zamanına, vaxtına gerçək sahib çıxmaqdır. Əgər insan zamanına sahib olsa, onun üçün ayrılan ömrə sahib çıxıbsa, aqibətini xeyrə calayacaqdır.

İtirməz düşünən insan öz fürsətini. Qovar lənətlik iblisin "sabah-sabah" vəsvəsəsini. Qayıdar özünə, təftiş edər öz durumunu, və "ləbbeyk!" - "hazıram!" deyər qəlbinin nicat çağırışına! Mütəal Allah cəmi insanları həqiqi dəyərlərə sahib çıxanlardan qərar versin, inşəallah!

**Allahım, bizləri dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beyti (ə) ilə birgə et!**

**Allahım, millətimizin və ümmətin qarşısında duran müşküllərin həll olunmasını nəsib et!**

**Allahım, dünyada baş alıb gedən günahsız qırğınların qarşısının alınmasını, zalım və qəsbkarların cəzalarına çatmasını inayət et!**

**Allahım, işğal altında olan torpaqların azad olunmasını, xəstələrin şəfa tapmasını, 12-ci İmam - Həzrət Məhdi Sahib-əz-Zamanın (ə.f) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 239 (7128) 9 noyabr 2018



# Ən təhlükəli səhər yeməyi budur

Şimali İngiltərədəki Bear Grill kafesinin rəhbərliyi qəribə bir səhər yeməyi menyusu hazırlayıb. Bu yeməyin ümumi kalorisi 8 min kilokaloridir. Amma bu səhər yeməyini dadmaq istəyənlər daha sonra səhhətlərində yarana biləcək hər hansı problemə görə kafe sahibindən narazı olmayacaqları ilə bağlı ərizə yazmalıdır. Hibernator adı verilən səhər yeməyi menyusuna aşağıdakılar aiddir: 4 yumurtadan ibarət qayğanaq, 8 sosiska, bekon, kartofdan hazırlanmış kotlet, 4 yumurtadan və pendirdən hazırlanmış omlet, 4 vafli, 4 ədəd qızardılmış çörək, pudinq. Bundan başqa, səhər yeməyinə pomidor, göbələk, kartof fri də daxildir. Müəssisəsinin rəhbəri Mark Uaynder bildirib ki, artıq 20 nəfər ziyarətçi bu səhər yeməyindən dadıb, amma axıra çatdıra bilməyib. İngilis iş adamı deyib ki, kiminsə Hibernatoru sona qədər yeyəcəyinə ümid etmir. Bu nəhəng səhər yeməyinin qiyməti isə 19.95 funtdur. (32 dollar) Kafedə həmçinin Hibernatorun uşaqlar üçün olan mini versiyasını da hazırlayıblar.

# Biznes qurmaq üçün...

**Londonda yaşayan 26 yaşlı universitet tələbəsi Casmin bakirə olması ilə bağlı həkimdən arayış alıb, Almaniya mərkəzli bir eskort saytında bəkarətini satışa çıxarıb. İndiyə qədər onun bəkarəti üçün verilən ən yüksək qiymət 90.00 pound olub.**



Saytın qurucusu olan 27 yaşındakı Jan Zakobielski isə Casminin bəkarətini illərin şərabına bənzədərək, yaşına görə onun təklifinin əvəzsiz olduğunu söyləyib. "The Sun" qazetinə açıqlama verən və soyadını açıqlamayan Casmin deyib ki, bu addımına ailəsi də dəstək verib. Onlar qızlarına deyiblər ki, düzgün adamı gözləməkdənsə, bəkarətini satışa çıxarmaq daha yaxşıdır. Casmin ənənəvi olaraq ilk cinsi əlaqə üçün nikahı gözləyən qadınlara hörmət etdiyini, amma doğru adamın gəlməsi üçün gözləyə bilməyəcəyini dedi. O, məhz bu səbəbdən bəkarətini satmağa qərar verdiyini və verdiyi bu qərara görə çox xoşbəxt olduğunu dedi. Casminin bəkarətini satışa çıxardığı saytın rəhbərləri isə bildiriblər ki, gənc qız həkim arayışı ilə bakirə olduğunu sübut etsə də, ən yüksək qiyməti verəcək şəxs həkim çağıraraq Casmini müayinə etdirmə haqqına sahibdir.

# Keçmiş sevgilisinin pulları ilə yeni sevgilisinə hədiyyələr aldı... həbs edildi



**Londonda keçmiş sevgilisinin bank kartlarını oğurlayıb yeni sevgilisinə hədiyyə alan kişi barədə məhkəmə qərarı verilib. Bu barədə "Daily Mail" nəşri xəbər verib. 29 yaşlı Encel Eksford bir neçə ay 26 yaşlı Maykl Fezendeldlə görüşürdü. Sonuncu görüş zamanı o, qıza bildirdi ki, onun pulqabını oğurlayıblar. Bu halda qız öz pulqabısını sevgilisinə verib. Növbəti gün Fezendel onunla ünsiyyəti kəsib. Bir ay sonra isə onun bank hesabından pullar "uçmağa" başlayıb. O, banka zəng edib və kartını bloklayıb. Amma o vaxta qədər eks sevgilisi onun hesabından 1.2 min funt sterlinq xərcləməyə nail olub.**

**Eksfordun eks sevgilisi onun xərcləmələrinin siyahısına da baxıb.** Orda Parisə aviabiletlər diqqətini çəkib. Aydınlaşdırma zamanı qadına məlum olub ki, biletlər Fezendeld və tanımadığı qadının adına bron edilib. Eksford başa düşüb ki, oğurlanmış pulqabı ilə bağlı hekayə uydurulub. Məqsəd isə sadəcə onun bank kartını ələ keçirmək olub. Aviabiletləri alandan sonra o, "Twitter" hesabı vasitəsilə sevgilisi ilə Parisə uçduğunu yazıb. Sevgilisi isə ona alınan gül buketlərinin şəkillərini İnstagram vasitəsilə paylaşıb. Həmin gül şəkillərinin paylaşıldığı gün bank hesabından gül mağazasına bir ödəmə edilib. Pulların böyük hissəsi pullu kanallar, parkinq və bahalı hədiyyələrə sərf edilib.

**Fezendeld və onun yeni sevgilisi Parisə uçmaq üçün London aeroportuna gələndə onları orda Eksford və polis gözləyirdi.** Oğlanı dələduzluq maddəsi ilə həbs ediblər. Məhkəmə ona 26 həftədən 2 ilə qədər həbs cəzası, eləcə də 150 saat ictimai iş cəzası verib.




**QOÇ** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**BUĞA** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**ƏKİZLƏR** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**XƏRÇƏNG** - İxtiyarınızda olan bu gözəl gün hamıdan çox sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**ŞİR** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**QIZ** - Qarşınızda duran bu təqvimdə yalnız işgüzarlığınızı artırmalısınız. Yeni işlərə başlamaq haqqında sövdələşmələr aparın. Çünki bu addım böyük perspektivlərdən xəbər verir.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir tarix yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamların müdaxilələrinə fikir verməyin. Bürcünüzün "hakimiyyətdə" olduğu bu maraqlı gündə enerjinizi boş şeylərə görə itirməyin.

**OXATAN** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməyə çalışın.

**OĞLAQ** - Qarşınızda kifayət qədər füsunkar bir təqvim durur. Xüsusən də nahardan sonra həyatdan zövq alacaqsınız. Bundan başqa gün ərzində bəzi sirləri açmaq imkanınız olacaq. Axşam qonaq gedin.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Səhər saatlarında proseslər mənfi istiqamətdə cərəyan edə bilər. Bu səbəbdən bəzi məsələlərdə ehtiyatlı olmalısınız. Günortadan sonra nüfuzlu və etibarlı adamlarla görüşməyiniz vacibdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu qoxu yaddaşı gücləndirir



Son illərdə aparılan araşdırmalara görə, yataq otağında gül saxlamaq əldə edilən məlumatların yaddaşa yerləşdirilməsini gücləndirir. İnsanlar fasiləsiz olaraq gül iylədikləri üçün yaddaşları güclənir və huşsuzluq arxa plana keçir. Yuxu əsnasında gül qoxusu altında olmaq, yeni alınan məlumatları daha güclü bir şəkildə beyinə hopdurur. Bu səbəbdən də həkimlər yaddaşı zəif insanlara oturduqları, yatdıqları otaqlarda gül saxlamağı məsləhət görürlər. Səhər oyananda gül suyu ilə yuyunmaq, ya da gün boyu gül qoxusu və ya gül suyu istifadə etmək yaddaşınızı güclü edə və unutqanlığı məğlub edə bilər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.